RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 12 (8328) ÇƏRŞƏNBƏ, 22 yanvar 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az






## İlham Əliyev şəhidlərin əziz xatirəsini yad edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva yanvarın 20-də - Ümumxalq Hüzn Günündə Şəhidlər xiyabanında 20 Yanvar şəhidlərinin əziz xatirəsini yad ediblər.

AZƏRTAC xəbər verir ki, dövlət başçısı "Əbədi məşəl" abidəsinin önünə əklil qoydu.

Müdafiə Nazirliyinin əlahiddə nümunəvi hərbi orkestrinin ifasında Azərbaycan Respublikasının Dövlət himni səsləndi.

❖ ❖ ❖

Yanvarın 20-də - Ümumxalq Hüzn Günündə dövlət və hökumət rəsmiləri, respublikamızdakı dini icmaların başçıları, xarici ölkələrin Azərbaycandakı səfirləri, beynəlxalq təşkilatların nümayəndələri də şəhidlərin əziz xatirəsini yad etdilər.

Şəhidlər xiyabanının ziyarət olunması mərasimində Baş Nazir Əli Əsədov, Milli Məclisin Sədri Oqtay Əsədov və Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev iştirak ediblər.









### Azərbaycan Prezidenti İlham Əliyevin İsveçrəyə işgüzar səfəri

## Azərbaycan Dövlət Neft Fondu ilə "VTB Bank" arasında səmərəli əməkdaşlıq davam edir



Yanvarın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Dünya İqtisadi Forumunun illik toplantısında iştirak etmək üçün İsveçrə Konfederasiyasına işgüzar səfəri başlayıb.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev yanvarın 20-də Davosda "VTB Bank"ın prezidenti-idarə heyətinin sədri Andrey Kostinlə görüşüb.

Görüşdə "VTB Bank"ın Azərbaycanda uzun müddət uğurlu fəaliyyət göstərdiyi qeyd olundu. Bildirildi ki, Azərbaycan Dövlət Neft Fondu ilə "VTB Bank" arasında səmərəli əməkdaşlıq davam edir. Prezident İlham Əliyev "VTB Bank"ın Azərbaycan iqtisadiyyatının real sektoruna kredit qoyuluşunun artırılmasını təklif etdi.

Andrey Kostin təklifə müsbət yanaşdığını bildirdi və dövlətimizin başçısını əmin etdi ki, "VTB Bank" bu istiqamətdə fəaliyyətini daha da genişləndirəcək.

Söhbət zamanı Azərbaycanla Rusiya arasında bütün sahələrdə olduğu kimi, iqtisadi-ticari sahədə də əlaqələrin uğurla inkişaf etdiyi bildirildi. Ticarət dövriyyəsinin artan istiqamətdə davam etməsinin və daha da sürətləndirilməsinin vacibliyi qeyd olundu.

Görüşdə əməkdaşlığın perspektivləri barədə fikir mübadiləsi aparıldı.

## Ölkəmizlə "Carlyle Group" arasında əməkdaşlığın inkişafı üçün geniş imkanlar var



Yanvarın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Davosda "Carlyle Group" şirkətinin həmtəsisçisi Devid Rubenşteynlə görüşü olub.

AZƏRTAC xəbər verir ki, görüşdə "Carlyle Group" şirkətinin həmtəsisçisi Devid Rubenşteyn rəhbərlik etdiyi qurumla Azərbaycan Dövlət Neft Fondu arasında əməkdaşlığı yüksək qiymətləndirdi və bu əməkdaşlığın gələcək istiqamətləri barədə dövlətimizin başçısına məlumat verdi.

Prezident İlham Əliyev Azərbaycan iqtisadiyyatının inkişaf etdiyini, ötən il ölkəmizdə qeyri-neft sənayesinin 14 faiz, kənd təsərrüfatının isə 7 faiz artdığını bildirdi.

Söhbət zamanı Azərbaycanda əlverişli investisiya mühitinin yaradıldığı qeyd edildi. Ölkəmizlə vəsaitlərin idarə olunması sahəsində dünyanın aparıcı şirkətlərindən biri olan "Carlyle Group" arasında əməkdaşlığın inkişafı üçün geniş imkanların olduğu vurğulandı.

## *Birinci vitse-prezident MEHRİBAN ƏLİYEVA:* "20 yanvar 1990-cı il Azərbaycanın tarixinə ən faciəli günlərdən biri kimi daxil olub"

Birinci vitse-prezident Mehriban Əliyeva rəsmi "Instagram" səhifəsində 20 Yanvar faciəsinin 30-cu ildönümü ilə bağlı paylaşım edib.



AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir: "20 yanvar 1990-cı il Azərbaycanın tarixinə ən faciəli günlərdən biri kimi daxil olub. 30 il bundan əvvəl xalqımızın qəhrəman oğul və qızları azadlıq və Vətənimizin istiqlaliyyəti uğrunda canlarından keçərək şəhidlik zirvəsinə ucalmışlar. Ümumxalq Hüzn Günündə 20 Yanvar faciəsinin günahsız qurbanlarının əziz xatirəsini ehtiramla yad edir, bütün şəhidlərimizə Allahdan rəhmət diləyirəm".

# “CISCO” şirkəti hazırda Azərbaycanda prioritet istiqamətlər üzrə layihələr reallaşdırmaqdadır

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 20-də Davosda “CISCO” şirkətinin icraçı vitse-prezidenti və baş maliyyə direktoru xanım Kelli Kramerlə görüşüb.



AZƏRTAC xəbər verir ki, görüşdə “CISCO” şirkəti ilə Azərbaycanın uzun müddətdir müxtəlif sahələrdə əməkdaşlıq etdiyi bildirildi. Qeyd olundu ki, “CISCO” şirkəti hazırda Azərbaycanda prioritet istiqamətlər üzrə layihələr reallaşdırmaqdadır. Bu layihələrin bir çoxunun ilkin mərhələləri artıq həyata keçirilib.

Prezident İlham Əliyev “CISCO” şirkətinin Azərbaycan üçün önəmli tərəfdaş olduğunu qeyd etdi. Dövlət başçısı bildirdi ki, bu şirkət üçün Azərbaycanda çox böyük biznes potensialı mövcuddur.

“CISCO” şirkətinin icraçı vitse-prezidenti və baş maliyyə direktoru Kelli Kramer Azərbaycanda gedən inkişaf proseslərini yüksək qiymətləndirdi və şirkətlə ölkəmiz arasında uğurlu təcrübə mübadiləsinin aparıldığını bildirdi. Xanım Kelli Kramer qeyd etdi ki, Azərbaycan “CISCO” şirkəti üçün regionda ən önəmli ölkədir.

# “Carlsberg Group” şirkəti kənd təsərrüfatı sektoruna da investisiya qoyuluşunu həyata keçirəcək

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 21-də Davosda “Carlsberg Group” şirkətinin baş icraçı direktoru Cees't Hart ilə görüşüb.



AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev ölkəmizdə son illərdə aparılan islahatların artıq müsbət nəticələr verdiyini, bunun xüsusilə şəffaflığın və hesabatlılığın artırılması hesabına vergi və gömrük orqanlarının topladığı büdcə gəlirlərində özünü göstərdiyini qeyd etdi. Dövlət başçısı ölkəmizdə investisiya və biznes mühitinin daha da əlverişli olması istiqamətində islahatların davam etdiriləcəyini, xarici və yerli investorlar üçün vergi, gömrük və digər sahələrdə proqnozlaşdırıla bilən siyasətin həyata keçiriləcəyini vurğuladı.

Görüşə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirən “Carlsberg Group” şirkətinin baş icraçı direktoru Cees't Hart dövlətimizin başçısı tərəfindən son illərdə aparılan uğurlu islahatlardan, Azərbaycandakı əlverişli biznes və investisiya şəraitindən məmnunluğunu ifadə etdi, bu tədbirlərin biznes və rəqabət mühitinin sağlamlaşdırılması, həmçinin şəffaflığın artırılması üçün geniş imkanlar yaratdığını vurğuladı. Baş icraçı direktor “Carlsberg Group” olaraq xarici investor kimi bu islahatlara hər zaman dəstək verdiklərini və bu dəstəyin bundan sonra da davam etdiriləcəyini bildirdi. Cees't Hart bu imkanlardan faydalanaraq Azərbaycana investisiya qoyuluşunu artırmaq niyyətində olduqlarını qeyd etdi. O, həmçinin aidiyyəti hökumət qurumları ilə şəffaflığın, hesabatlılığın və mühasibatlılığın daha da yüksək səviyyəyə qalxması üçün əməkdaşlıq etdiklərini söylədi.

Söhbət zamanı bildirildi ki, bu ildən başlayaraq “Carlsberg Group” şirkəti kənd təsərrüfatı sektoruna da investisiya qoyuluşunu həyata keçirəcək və bu istiqamətdə artıq pilot layihələrin icrasına başlanılıb.

# “Signify” şirkəti Azərbaycana hər cür dəstək verməyə hazırdır

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanvarın 21-də Davosda “Signify” şirkətinin baş icraçı direktoru Erik Rondolat ilə görüşü olub.



AZƏRTAC xəbər verir ki, son vaxtlar Azərbaycanda aparılan islahatlardan məmnunluğunu bildirən Erik Rondolat, ilk növbədə, ölkəmizdə həyata keçirdikləri layihələr barədə dövlətimizin başçısına məlumat verdi. Qeyd etdi ki, aparılan islahatlar Azərbaycanda biznes və investisiya mühitinin yaxşılaşması, ölkəmizdə yeni layihələrin həyata keçirilməsi üçün gözəl zəmin yaradır. “Signify” şirkətinin işıqlandırma sahəsində dünya liderlərindən biri olduğunu vurğulayan baş icraçı direktor rəhbərlik etdiyi qurumun ölkəmizə yeni texnologiyaların gətirilməsi baxımından Azərbaycana hər cür dəstək verməyə hazır olduğunu qeyd etdi. Bildirildi ki, şirkət iqtisadiyyat, o cümlədən kənd təsərrüfatı sahəsində, həmçinin “ağıllı şəhər” layihələrində və internet texnologiyaları ilə işıqlandırma sistemlərinin inteqrasiyası istiqamətində müxtəlif həll variantları təklif edir. Baş icraçı direktor eyni zamanda istər kənd təsərrüfatı sahəsində, istərsə də digər sahələrdə işıqlandırma vasitəsilə yeni həll variantlarına investisiya yatırılması imkanlarını Azərbaycanın aidiyyəti qurumları ilə müzakirə etməkdə maraqlı olduqlarını, müvafiq sahədə yeni texnologiyaların ölkəmizə gətirilməsini təmin edə biləcəklərini vurğuladı.

Görüşdən məmnunluğunu bildirən Prezident İlham Əliyev Bakı şəhərinin işıqlandırılması üzrə hazırda icra edilən layihənin sürətləndirilməsinin vacibliyini bildirdi. Dövlət başçısı eyni zamanda növbəti mərhələlərdə Sumqayıtda və Azərbaycanın digər böyük şəhərlərində işıqlandırmanın keyfiyyətinin artırılması, elektrik enerjisinə əhəmiyyətli qənaəti təmin edən yeni həll variantlarının tətbiqi, həmçinin kənd təsərrüfatının müxtəlif sahələrində işıqlandırma sistemləri vasitəsilə müasir texnologiyaların gətirilməsinin aidiyyəti dövlət qurumları ilə müzakirə olunması barədə müvafiq tapşırıqlarını verdi.

# Azərbaycan - Türkiyə əlaqələri bütün sahələrdə genişlənir

Yanvarın 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Davosda Türkiyə Respublikasının Xarici İşlər naziri Mövlud Çavuşoğlu ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə ikitərəfli dostluq və qardaşlıq münasibətlərinin uğurlu inkişafından məmnunluq ifadə olundu, əlaqələrimizin bütün sahələrdə genişləndiyi vurğulandı.

Söhbət zamanı Azərbaycan və Türkiyə prezidentləri arasında yüksək səviyyəli görüşlərin münasibətlərimizin möhkəmlənməsində rolu qeyd edildi. Azərbaycanla Türkiyənin birgə həyata keçirdiyi qlobal əhəmiyyətli layihələrin önəmi vurğulandı.



# Azərbaycan ilə Xorvatiya arasında əməkdaşlığın perspektivləri müzakirə edilib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 21-də Davosda Xorvatiya Respublikasının Baş Naziri Andrey Plenkoviç ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan ilə Xorvatiya arasında imzalanan strateji tərəfdaşlıq sənədinə uyğun olaraq münasibətlərin səviyyəsindən məmnunluq ifadə edildi.

Söhbət zamanı ölkələrimiz arasında enerji, nəqliyyat, informasiya-kommunikasiya texnologiyaları və digər sahələrdə əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.



# Dünya İqtisadi Forumunun Azərbaycanda regional mərkəzinin yaradılması haqqında niyyət protokolu imzalanıb

Yanvarın 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Davosda Dünya İqtisadi Forumunun prezidenti Borge Brende ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Dünya İqtisadi Forumunun prezidenti Borge Brende forumun 50 illik yubileyi münasibətilə tədbirin nüfuzlu qonaqları üçün çox məhdud sayda - cəmi 200 ədəd hazırlanan şokolad dəstinin birini dövlətimizin başçısına hədiyyə etdi.

Görüşdə Azərbaycan ilə Davos Forumu arasında münasibətlərin tarixi və onun əhəmiyyəti haqqında fikir mübadiləsi aparıldı. Ölkəmizin regionda iqtisadiyyat, nəqliyyat, infrastruktur sahələrində oynadığı rolun vacibliyi vurğulandı. Azərbaycan Prezidenti İlham Əliyevlə Dünya İqtisadi Forumunun prezidenti Borge Brende arasında ötən il imzalanmış memorandumun davamı kimi bu gün imzalanacaq niyyət protokolunun əhəmiyyəti qeyd edildi. Sənədə əsasən forumun ölkəmizdə afilə edilmiş regional mərkəzi yaradılacaq.

Söhbət zamanı vurğulandı ki, bu cür mərkəzlər çox məhdud sayda ölkələrdə yaradılır və onların əsas məqsədi dördüncü sənaye inqilabının səbəb olduğu çağırış və imkanların həyata keçirilməsidir.

Sonra Dünya İqtisadi Forumunun ölkəmizdə afilə edilmiş regional mərkəzinin yaradılması ilə bağlı niyyət protokolu imzalandı.

Sənədi Prezident İlham Əliyev və forumun prezidenti Borge Brende imzaladılar.

**Borge BRENDE:** Təşəkkür edirəm.

**Prezident İlham ƏLİYEV:** Çox sağ olun. Bu, bizim əlaqələrimizin yeni səhifəsi üçün yaxşı başlanğıcdır.

**Borge BRENDE:** Biz, həmçinin bilirik ki, Siz qarşıya hədəf qoyanda onu həyata keçirirsiniz. Düşünürəm ki, Azərbaycan dördüncü sənaye inqilabına ən yaxşı hazır olan ölkələrdən biri olacaq.

**Prezident İlham ƏLİYEV:** Biz çox fəxr edirik ki, Davos Forumu ilə bu mühüm sənədi imzalayan ilk ölkələr arasındayıq. Bu, həqiqətən də bizim əlaqələrimizdə yeni səhifədir. Ümidvaram ki, gələcək keçmiş qədər uğurlu olacaq.

**Borge BRENDE:** Təbrik edirəm. Bütün dəstəyinizə görə təşəkkür edirəm.

**Prezident İlham ƏLİYEV:** Təşəkkür edirəm.









# Avropa Yenidənqurma və İnkişaf Bankı Azərbaycanda aparılan uğurlu islahatları yüksək qiymətləndirir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 21-də Davosda Avropa Yenidənqurma və İnkişaf Bankının prezidenti Suma Çakrabarti ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycanda mövcud investisiya mühitinin son dövrlərdə daha da yaxşılaşdığı məmnunluqla vurğulandı, vergi və gömrük sahələrində aparılan uğurlu islahatlar, inzibatçılığın asanlaşması, "ASAN xidmət"in və DOST agentliyinin fəaliyyəti, dövlət tərəfindən göstərilən xidmətlərin rəqəmsallaşdırılması prosesi xüsusi qeyd edildi.

Söhbət zamanı Avropa Yenidənqurma və İnkişaf Bankının ölkəmizdə həyata keçirilən layihələri və prioritet sahələrin müəyyənləşdirilməsi barədə fikir mübadiləsi aparıldı. Bankın Azərbaycanda mövcud əlverişli investisiya mühitindən yararlanaraq fəaliyyətini daha da genişləndirmək üçün böyük imkanlarının olduğu bildirildi.

# Azərbaycanın "Naxçıvan" və "Qoşadaş" yataqlarının Rusiyanın "LUKOIL" şirkəti ilə birgə işlənilməsi barədə qərar qəbul olunub



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 21-də Davosda Rusiyanın "LUKOIL" şirkətinin prezidenti Vahid Ələkbərov ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycanın "Naxçıvan", "Qoşadaş" yataqlarının "LUKOIL" şirkəti ilə birgə işlənilməsi məsələsi müzakirə olundu və bu barədə qərar qəbul edildi.

Söhbət zamanı perspektiv strukturlar və SOCAR-"LUKOIL" əməkdaşlığı ətrafında fikir mübadiləsi aparıldı.

# Azərbaycan Prezidentinin köməkçisi NATO-nun mənzil-qərargahında olub

Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev yanvarın 20-də NATO-nun mənzil-qərargahında olub.



Azərbaycan Respublikasının NATO yanında nümayəndəliyindən AZƏRTAC-a bildiriblər ki, Hikmət Hacıyev NATO Baş katibinin müavini Mirça Coana ilə görüşüb və müttəfiq dövlətlərin 29+1 formatında keçirilən iclasında iştirak edib. Görüş və iclas zamanı Azərbaycan-NATO tərəfdaşlığı, regional təhlükəsizlik və qarşılıqlı maraq doğuran digər məsələlər haqqında fikir mübadiləsi aparılıb. H.Hacıyev Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə aparılan islahatlar haqqında ətraflı məlumat verib. NATO ölkələri Azərbaycanın Sülh naminə tərəfdaşlıq proqramında aktiv iştirakını, alyansın əməliyyatlarına töhfələrini, qarşılıqlı operativ uzlaşmanın artırılması və islahatlar sahəsində əldə etdiyi tərəqqini yüksək qiymətləndirib.

20 Yanvar faciəsinin 30-cu ildönümümə təsadüf edən görüş və iclasda Prezidentin köməkçisi Azərbaycan tarixində mühüm rol oynayan bu hadisələr haqqında da danışıb. NATO rəsmiləri və üzv dövlətlərin təmsilçiləri Azərbaycan xalqı ilə həmrəyliklərini və şəhidlərin xatirəsinə ehtiramlarını ifadə ediblər.

# Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin rəhbərliyi vətəndaşların müraciətlərini dinləyib

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı yanvarın 21-də Xırdalan şəhərində vətəndaşları qəbul edib.

Xırdalandakı Heydər Əliyev Mərkəzində keçirilən qəbulda M.Qurbanlı Abşeron və Xızı rayonlarının sakinlərinin müraciətlərinə baxıb.

Dövlət Komitəsi sədrinin müavini Gündüz İsmayılov isə Siyəzən Şəhər Heydər Əliyev Mərkəzində rayon sakinləri ilə görüşüb.

Vətəndaşlar əsasən dini icmaların fəaliyyəti, onların dövlət qeydiyyatına alınması, məscidlərin təmiri, dini maarifləndirmə ilə əlaqədar icmalara vəsaitlərin ayrılması, məscidlərin dini təyinatlı kitablarla təmin edilməsi və digər məsələlərlə bağlı müraciət ediblər.

Müraciətlərin bir qismi yerindəcə öz həllini tapıb. Araşdırılmaya ehtiyac olan bir sıra məsələlərin qanunvericiliyə uyğun, operativ həlli üçün müvafiq tapşırıqlar verilib.

# Prezident İlham Əliyev Dünya İqtisadi Forumu çərçivəsində keçirilən iclasda iştirak edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 21-də Davosda Dünya İqtisadi Forumu çərçivəsində keçirilən "Avrasiya üçün yeni baxış - dayanıqlı inkişaf üçün tərəfdaşlıq" mövzusunda iclasda iştirak edib.

AZƏRTAC xəbər verir ki, iclasda Avrasiyada ölkələrarası əməkdaşlıq məsələsi müzakirə olundu. Həmçinin ticarət, energetika, nəqliyyat sahələrində əməkdaşlıqla bağlı fikir mübadiləsi aparıldı, dördüncü sənaye inqilabının region üçün əhəmiyyəti vurğulandı.



İclasda Monqolustanın Prezidenti Xaltmaaqiyn Battulqa, Gürcüstanın Baş Naziri Giorgi Qaxariya, Türkiyənin Xarici İşlər naziri Mövlud Çavuşoğlu, Avropa Yenidənqurma və İnkişaf Bankının prezidenti Suma Çakrabarti və digər nüfuzlu qonaqlar iştirak ediblər.

# 117 ölkə, 53 dövlət və hökumət başçısı...

## Prezident İlham Əliyevin iştirak etdiyi 50-ci Davos Dünya İqtisadi Forumunda beyin mərkəzlərinin, siyasi, iqtisadi və elmi elitanın diqqəti bir daha Xəzər regionuna, Azərbaycana yönəldi

Yanvarın 21-də İsveçrənin Davos şəhərində sayca 50-ci Dünya İqtisadi Forumu öz işinə başlayıb. "Birgə və davamlı dünyanın maraqlı tərəfləri" mövzusunda 4 gün davam edəcək forumda Xəzər Həftəsi, Qlobal İdeyalar Platforması müzakirə ediləcək. Yanvarın 24-dək davam edəcək forum çərçivəsində Trans-Xəzər Qaz Kəməri, onun Xəzər regionunda rolu və Xəzər Nəqliyyat Koridoruna həsr edilmiş sessiyalar keçiriləcək. Sessiyalar zamanı geopolitik və iqtisadi dəyişikliklər, regionda sülhün qorunması məsələlərinə toxunulacaq. Forumda 117 ölkənin nümayəndələri, o cümlədən 53 ölkənin dövlət və hökumət başçıları iştirak edirlər. 400-dən çox açıq və qapalı iclası keçiriləcək forum həmçinin dünyanın hər yerindən 119 milyarderi bir araya gətirib.

### İlham Əliyevin 14-cü Davos səfəri

1971-ci ildə isveçrəli professor Klaus Şvabın təşəbbüsü ilə yaradılan Davos İqtisadi Forumunun (DİF) hər il keçirilməsində əsas məqsəd dövlət və hökumət başçıları, beynəlxalq təşkilatlar, elm adamları, nüfuzlu siyasətçilər, iqtisadçılar, biznesmenlərin iştirakı ilə yeni beynəlxalq iqtisadi layihələrin həyata keçirilməsini müzakirə və təşkil etməkdir.

1979-cu ildən etibarən DİF-in mütəxəssisləri tərəfindən "Dövlətlərin qlobal rəqabətə davamlılığı" adlı məruzə hazırlanır. Bu məruzələrdə dünyanın 100-dən çox dövləti iki göstərici əsasında - potensial inkişaf və rəqabətədavamlılıq indeksi üzrə qiymətləndirilir. Bu, yeganə forumdur ki, həm rəsmiləri, dünya liderlərini, həm də iş adamlarını, vətəndaş cəmiyyəti nümayəndələrini bir araya toplamaq imkanına malikdir. Bu baxımdan Davos Forumu müzakirələr, müxtəlif ölkələrdən investisiyaların cəlb edilməsi üçün və ölkənin özünün potensialının təqdim edilməsi baxımından da olduqca vacib platformadır.

Diqqət çəkən əsas məqamlardan biri də budur ki, öz tarixi fəaliyyəti dövründə bu mötəbər tədbir yalnız iki dəfə Davosdan kənarda təşkil edilib. Böyük qürur hissi doğuran hal ondan ibarətdir ki, bu dünyəvi forum ABŞ-dan başqa yalnız Azərbaycanda - Bakı şəhərində keçirilib. 2013-cü ildə "Cənubi Qafqazın və Mərkəzi Asiyanın gələcəyinə dair strateji dialoq" mövzusunda keçirilmiş Dünya İqtisadi Forumu bu dünyəvi qurum tərəfindən ölkəmizin iqtisadi inkişafında qazanılmış uğurlara verilən yüksək tarixi bir dəyər kimi də qiymətləndirilməlidir.

Azərbaycan Prezidenti cənab İlham Əliyev forumun fəxri üzvüdür. Dövlət başçısı kimi ilk dəfə 2007-ci ilin yanvarında Davos Forumunda iştirak edən cənab İlham Əliyev 2020-ci ildə 14-cü dəfə bu mötəbər toplantıya qatılmış oldu. Hələ 2016-cı ildə Dünya İqtisadi Forumunun icraçı sədri Klaus Şvab forumda onuncu dəfə iştirak etdiyinə görə Davos fəxri üzvlər klubunun nişanını Azərbaycan Prezidentinə təqdim etmişdi.

Azərbaycana göstərilən bu yüksək etimad, həm də ölkə rəhbərinin Dünya İqtisadi Forumunda fəal iştirakı, maraqlı və strateji əhəmiyyət kəsb edən mülahizələrlə zəngin çıxışları, keçirdiyi çoxsaylı və yüksək səviyyəli işgüzar görüşlərin nəticəsi kimi qəbul olunmalıdır.

### Ölkənin potensialının təqdim edilməsi üçün vacib platforma

Göründüyü kimi, cənab İlham Əliyev Davos İqtisadi Forumunun arzuolunan prezidentlərindən biridir. Dövlət başçısı ən vacib müzakirələrdə hər zaman məruzəçi kimi çıxış edir. Onun dünyada gedən siyasi və iqtisadi proseslərə münasibəti ciddi marağa səbəb olur. Bu mötəbər forumda yaxından iştirak edərək təcrübə, imkanlar mübadiləsini ortaya qoymaqla dünyadakı mövcud problemlərin aradan qaldırılmasına töhfəsini verir.

Builki işgüzar səfər çərçivəsində də Prezident mühüm görüşlər keçirib. Yanvarın 20-də cənab İlham Əliyev "VTB Bank"ın prezidenti-idarə heyətinin sədri Andrey Kostinlə, "Carlyle Group" şirkətinin həmtəsisçisi Devid Rubenşteynlə, "CISCO" şirkətinin icraçı vitse-prezidenti və baş maliyyə direktoru xanım Kelli Kramerlə, yanvarın 21-də isə dövlət başçısı "Carlsberg Group" şirkətinin baş icraçı direktoru Cees't Hart, "Signify" şirkətinin baş icraçı direktoru Erik Rondolat, Avropa Yenidənqurma və İnkişaf Bankının prezidenti Suma Çakrabarti, Rusiyanın "LUKOIL" şirkətinin prezidenti Vahid Ələkbərov, Türkiyə Respublikasının Xarici İşlər naziri Mövlud Çavuşoğlu və Xorvatiya Respublikasının Baş Naziri Andrey Plenkoviç ilə görüşlər keçirib. Həmçinin Azərbaycanla Dünya İqtisadi Forumu arasında çox mühüm niyyət protokolu imzalanıb.

Maraqlı keçən görüşlərdə Prezident İlham Əliyev ölkəmizdə son illərdə aparılan islahatların artıq müsbət nəticələr verdiyini, bunun xüsusilə şəffaflığın və hesabatlılığın artırılması hesabına vergi və gömrük orqanlarının topladığı büdcə gəlirlərində özünü göstərdiyini qeyd etdi. Dövlət başçısı ölkəmizdə investisiya və biznes mühitinin daha da əlverişli olması istiqamətində islahatların davam etdiriləcəyini, xarici və yerli investorlar üçün vergi, gömrük və digər sahələrdə proqnozlaşdırıla bilən siyasətin həyata keçiriləcəyini vurğuladı.

Azərbaycanda həyata keçirilən islahatları, yaradılan biznes mühitini və sürətli inkişafı dəstəklədiklərini bildirən şirkət rəhbərləri vurğuladılar ki, bütün bunlar Azərbaycanın hərtərəfli inkişafına mühüm töhfə verəcək.

Təbii ki, forum çərçivəsində keçirilən çoxsaylı görüşlər əməkdaşlığın inkişafına, ölkəmizə investisiya axınının çoxalmasına, Azərbaycan məhsullarının xarici bazarlara çıxarılmasına real zəmin yaradır.

### Dünyanın lider islahatçı ölkəsi

Prezident İlham Əliyevin Davos İqtisadi Forumunun rəsmi saytında yerləşdirilən "Azərbaycanın vahid və dayanıqlı dünyada rolu" sərlövhəli məqaləsində də dövlət başçısı bu forumun əhəmiyyətindən və Azərbaycanın son illərdəki yüksələn nüfuzu, artan imkanlarından söz açıb.

Azərbaycan Prezidentinin dediyi kimi, Dünya İqtisadi Forumu siyasətçiləri, biznes adamlarını və ictimai təşkilatları bir araya gətirən və dünyada baş verən iqtisadi proseslərin, dünyanın iqtisadi gündəliyinin, habelə ictimai-siyasi proseslərin müzakirə olunduğu ən böyük platformalardan biridir. Forum dünyada gedən iqtisadi meyillər haqqında dolğun məlumat əldə etməyə geniş imkan verir: "Mən 2007-ci ildən başlayaraq artıq 14-cü dəfədir ki, Davosda bu forumun İllik toplantısında iştirak edəcəyəm. Dünya İqtisadi Forumu Azərbaycan reallıqlarını beynəlxalq ictimaiyyətə təqdim etmək üçün gözəl bir platforma olmaqla yanaşı, dünyada baş verən iqtisadi meyillər haqqında dolğun məlumat əldə etməyə imkan yaradır. Bu, bizə islahatları davamlı şəkildə aparmağa, ölkəyə xarici investisiyaları cəlb etməyə imkan verir".

Həqiqətən də məhz cənab İlham Əliyevin həyata keçirdiyi bu islahatlar nəticəsində 2007-ci ilin əvvəli ilə müqayisədə 2019-cu ildə ölkə iqtisadiyyatının həcmi 80 faiz, o cümlədən qeyri-neft sektorunun həcmi 2,1 dəfə, strateji valyuta ehtiyatları 13 dəfə artıb, ölkədə yoxsulluq səviyyəsi 4 dəfədən çox, işsizlik səviyyəsi isə əhəmiyyətli dərəcədə azalaraq 4,9 faizə çatıb.

Dünya Bankının "Doing Business 2009" və "Doing Business 2019" hesabatlarında Azərbaycan dünyanın lider islahatçı ölkəsi olaraq tanınıb.

Məqalədə qeyd edilir ki, 2007-ci ildən keçən dövr ərzində ölkəmizə 111 milyard dollardan çox xarici investisiya cəlb olunub. Bu da mühüm layihələrin reallaşdırılması ilə yanaşı, iqtisadiyyatın bütün sahələrində irəliləyişləri təmin edib. Bunlar Dünya İqtisadi Forumunun hər il açıqladığı "Qlobal Rəqabətlilik Hesabatı"nda da öz əksini tapıb.

Əgər Davos İqtisadi Forumunun açıqladığı "Qlobal Rəqabətlilik Hesabatı"nda Azərbaycan 2006-2007-ci ildə 64-cü yerdə idisə, 2017-2018-ci ildə 137 ölkə arasında 35-ci yerə qədər yüksəldi. 2019-cu ildə isə Azərbaycan "Əhalinin elektrik təchizatı səviyyəsi" üzrə dünyada 2-ci yer tutan ölkələr sırasında, "Hökumət tənzimləməsinin yükü" və "Əcnəbi işçilərin işə qəbulunun asanlığı" üzrə 3-cü yerdə, "Hökumətin dəyişməyə cavabdehliyi" üzrə 5-ci yerdə, "Biznesə başlama üçün tələb olunan günlərin sayı" üzrə 8-ci yerdə, "Hökumətin uzunmüddətli strategiyası" üzrə isə 10-cu yerdə qərarlaşdı.

### Beynəlxalq layihələr, Avrasiyanın nəqliyyat mərkəzləri

Bir vaxtlar elektrik enerjisi idxal edən bir ölkə bu gün dünyanın əsas enerji ixracatçısıdır. Avrasiyanın nəqliyyat mərkəzlərindən birinə çevrilən ölkəmiz bu gün Şimaldan Cənuba və Şərqdən Qərbə yüklərin daşınmasında mühüm nəqliyyat qovşağıdır. 2017-ci ilin oktyabr ayından istifadəyə verilən Bakı-Tbilisi-Qars dəmir yolu, 2018-ci ilin may ayından fəaliyyətə başlayan Bakı Beynəlxalq Dəniz Ticarət Limanı bu istiqamətdə həyata keçirilən proseslərə böyük töhfə verir.

Ötən 16 il müddətində Azərbaycan enerji layihələrini də uğurla həyata keçirməyə davam edib. Avropaya qaz təchizatının şaxələndirilməsi istiqamətində Avropanın səylərinə dəstək verən Azərbaycan "Cənub qaz dəhlizi" layihəsinin reallaşmasına nail olub. Uzunluğu 3500 kilometr olan bu layihə Xəzər regionundan qaz təchizatını Avropa bazarlarına birləşdirməklə bütün regionun enerji xəritəsini dəyişir. Bu layihə Avropaya qazın nəqlinə alternativ kimi deyil, Avropaya qaz təchizatının şaxələndirilməsi məqsədilə həyata keçirilib. Ümumi kapital qoyuluşu 40 milyard dollar olan bu layihə 4 hissədən ibarətdir - "Şahdəniz-2", Cənubi Qafqaz Boru Kəməri, TANAP və TAP. Bu il layihə tam olaraq fəaliyyətə başlayacaq.

Dövlət başçısı vurğulayıb ki, Dünya İqtisadi Forumu ilə fəal və səmərəli əlaqələri yüksək qiymətləndirən Azərbaycan bu platformada əməkdaşlığın inkişaf etdirilməsi və daha da irəli aparılması üçün göstərilən səyləri dəstəkləməkdə bundan sonra da davam edəcək.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***












# And yeri: Şəhidlər xiyabanı

## 30 ildir bu müqəddəs ziyarətgah ilboyu insan axını ilə dolub-boşalır











Bu müqəddəs məkanın adı dillər əzbəridir. 30 ildir ki, Azərbaycan Respublikasının üçrəngli bayrağı əzəmətlə bu zirvədə dalğalanır, əbədi məşəl isə yanır.

Köhnə Dağüstü parkın yerində öz əzəməti ilə ucalan memorial abidə yenə də (əslində, hər gün bu müqəddəs and yeri, məbəd ziyarətçilərini qarşılayır) uşaqlı-böyüklü hər kəsin baş əydiyi məbədə çevrilib. Şəhidlər xiyabanının al-qırmızı qərənfillərə bürünməsi də məhz qəhrəmanlıq tarixinin şərəfinədir.

Qərənfil libaslı bu müqəddəs məkanda 158 nəfər dəfn edilib ki, onlardan dördü naməlumdur. Xiyabanda eyni zamanda 256 Qarabağ, 38 nəfər isə Daxili Qoşunların şəhidi uyuyur. Bunlardan başqa, 1992-ci il yanvarın 25-26-da baş verən məlum "Daşaltı əməliyyatı"nda şəhid olan 70 döyüşçümüzün də şərəfinə burada abidə qoyulub.

Ulu Öndər Heydər Əliyevin təşəbbüsü, diqqət və qayğısı ilə ucaldılan Şəhidlər Abidə Kompleksi xiyabanın rəsmi simvoludur! Üzəri qızılla süslənmiş bu abidə kompleksi xiyabanın ümumi kompozisiyasının kulminasiyası sayılır! Müstəqillik illərində gözəlləşən, yeniləşən, məşhurlaşan, iyirmi birinci yüzilliyin ən inkişaf etmiş paytaxtı kimi tanınan, son illər bir çox beynəlxalq tədbirlərin keçirildiyi, multikulturalizm məkanı, tolerantlıq nümunəsi olan Bakı buradan bir az da geniş panoramda görünür.

Şəhidlər Xiyabanında diqqətçəkən abidələrdən biri də 1918-ci ildə Bakını işğaldan azad etmək üçün gəlib burada şəhid olan türk əsgərlərinə ucaldılan anıtdır. Azərbaycan və Türkiyə bayraqları əziz şəhidlərimizin ruhu naminə daim burada qoşa dalğalanır.

Xiyabanda Azərbaycanın igid, cəsur oğlu, iki dəfə Sovet İttifaqı Qəhrəmanı, general-mayor Həzi Aslanovun da büstü ucalır.

Şəhidlər xiyabanındakı ilk qarşılaşdığımız məzar İlham və Fərizəyə aiddir. Bu iki Azərbaycan gənci həm milli mücadilə, həm də sevgi, sədaqət rəmzidir! 20 Yanvar gecəsi İlham sovet ordusunun Bakını işğal etməyə gələn silahlı quldur dəstələrinin odsaçan gülləsinə tuş gəlib şəhid olduqdan sonra Fərizə bu ayrılığa dözə bilməyib və "İlhamsız yaşamaqdansa ölmək yaxşıdır" deyərək intihar edir! XX əsrin Leyli və Məcnunu, Fərhad və Şirini, Tahir və Zöhrəsi kimi sevilən və daim yad edilən İlhamla Fərizə haqqında dastan isə artıq dillər əzbəridir. Məhz buna görə İlhamla Fərizənin toy tarixi - 30 iyun Azərbaycanda "Sevgililər Günü" kimi qeyd edilir!

Bu il də Şəhidlər xiyabanına gələnlərin arasında ağsaqqal da var, ağbirçək də, uşaq da, böyük də, sağlam da, əlil də...

Öncədən deyək ki, ziyarətə adəti üzrə yanvar ayının 15-16-dan başlayaraq ayrı-ayrı kollektivlər bağça, məktəb və gənclər təşkilatlarının nümayəndələri gəlirlər. Ənənə bu il də davam etdirildi.

BDU-nun dosenti Ələmdar Cabbarlının fikirləri bir qədər fərqli - istək və arzu xarakterlidir: "20 Yanvar xalqımızın tarixində ən şərəfli səhifələrdən biridir. Əliyalın xalqımız məhz o gün tankların qabağına çıxmaqla öz mərdliyini, cəsarətini, imperiyaya qarşı mübarizliyini bir daha sübut etdi. 20 Yanvar xalqımızın müstəqillik savaşında mühüm əhəmiyyətə malik bir gündür..."

"İstedadlı Əlillər" İctimai Birliyinin sədri, birinci qrup əlil Cavad Qasımov da ziyarətçilərin arasında idi. Əlil arabasında bu müqəddəs məkanı ziyarət etməyi özünün vətəndaşlıq borcu sayır: "Azadlıq aşiqləri o zaman sübut etdilər ki, bizi müstəqillik yolundan heç bir imperiya, hər hansı qüvvə döndərə bilməz. Bugünkü müstəqilliyimizə görə biz ilk növbədə 20 Yanvar şəhidlərinə borcluyuq. Dövlətimiz tərəfindən xiyabanın abadlığı, şəhidlərimizin adlarının əbədiləşdirilməsi, ailələrinə qayğı, onların sosial müdafiəsinin gücləndirilməsi kimi mühüm tədbirlər görülüb. Bu insanlar heç vaxt unudulmayacaqlar. Ədəbiyyatımızda şəhidlərimizin obrazları yenə də yaradılmalı, bədii əsərlərdə onlar nümunə, örnək kimi gənclərimizə təqdim edilməlidir".

Bakı şəhərinin Binəqədi, Səbail, Yasamal, Nizami, Nərimanov rayonlarındakı tam orta məktəblərin müəllim və şagird kollektivləri, eləcə də valideynlər xiyabanı ziyarət etməyi özlərinə borc biliblər. Xiyaban yaşıdlılar da az deyil bu il: 30 yaş gəncliyin odlu-alovlu, hisslərin və duyğuların baş alıb getdiyi dövrdür. Nə yaxşı ki bu yaşda olanlarda vətənpərvərlik hissi yüksəkdir. Xiyabanı ziyarət edən tələbə-gənclər bu il daha çox idi. BDU-nun tələbələrindən Güldanə Mirzəzadə, Cəmilə Nəcəfzadə, Sənan Sadıqzadə, Rəşad Mirzəzadə, Ramin, Bəhram Bəylərov qardaşları, ibtidai sinif müəllimi Aynurə Nəcəfova və digərlərini bu müqəddəs məkana gətirən bir gecədə torpaq üzərinə qanları ilə "Azadlıq" yazan şəhidlərin məzarlarını ziyarət etmək və amallarına sadiq qalacaqlarını təsdiqləməkdir.

Yeni Azərbaycan Partiyası Gənclər Birliyi fəallarından biri Həbib Misirov dedi ki, Azərbaycan gəncliyi qəhrəman şəhidlərimizlə fəxr edir: "Bütün bunlar barədə düşünərkən Ümummilli Lider Heydər Əliyevin vaxtilə söylədiyi dəyərli fikirlər bir daha yada düşür: "20 Yanvar faciəsində həlak olanlar xalq qəhrəmanlarıdır, onlar millətimizin qəhrəmanlarıdır. Onların həlak olması bizim üçün, xalqımız üçün böyük itkidir. Ancaq eyni zamanda onların şəhid olması xalqımızın qəhrəmanlıq rəmzidir. O gecə tökülən qanlar Azərbaycanın müstəqilliyini nümayiş etdirən milli bayrağımızın üstündəki qandır".

Xocalı Rayon Mərkəzi Xəstəxanasının baş həkimi Aqil Məmmədov fikirlərini belə ifadə etdi: "Şəhidlər xiyabanını ziyarət etmək mənəvi borcdur. 20 Yanvar Azərbaycanı müstəqilliyə aparan yolun başlanğıcı oldu. Ölkədə milli azadlıq hərəkatını boğmaq məqsədilə sovet rəhbərliyi tərəfindən Bakıya yeridilən silahlı qüvvə və ağır hərbi texnika dinc əhalini amansızcasına atəşə tutdu. Yüzlərlə insan şəhid oldu və yaralandı. Sovet ordusu adı altında paytaxta soxulan erməni quldur dəstələrinin törətdiyi həmin vəhşiliklər insanlıqdan çox-çox uzaq idi. Xocalı qətliamı da məhz düşmənlərimizin bəd niyyətləri ilə həyata keçirilmədimi? 20 Yanvarın davamı olaraq sonralar respublikamızın ərazilərinə havadarlarının dəstəyi və yardımları ilə Ermənistan tərəfindən genişmiqyaslı hərbi təcavüz edilmədimi?! Qanlı 20 Yanvar xalqımıza düşməni yaxından tanıtdı..."

Builki ziyarətçilərin arasında altı yaşlı bir nəfər də diqqətimizi çəkdi. Məhəmməd Fərəcli anası Mehriban müəllimə ilə gəlmişdi. Şəhidlər xiyabanı haqqında bilgiləri bizi heyran qoydu. Balaca Məhəmməd şəhidlərimizə həsr edilən xeyli şeir bilirdi. Əlində tutduğu bir cüt qərənfili hansı məzarın üstünə qoyacağını soruşduqda fikirləşmədən "İlqarla Larisanın" dedi. Anası Mehriban xanım isə bildirdi ki, 20 Yanvar öz dəhşətləri ilə yaddaşlara yazılıb: "Çürüməkdə olan, müvazinətini itirmiş sovet imperiyasının cəlladları o müdhiş gecədə daşnaklarla birləşərək Bakını qan çanağına döndərmişdi. Keçmiş SSRİ-nin ilk və həm də sonuncu prezidenti M. Qorbaçov nəinki milli azadlıq mübarizlərinin qətlinə, əslində, insanlığa və azadlığa qarşı fərman vermişdi. Lakin o dəhşətli gecədən qan içində çıxan xalqımızın mərd, qorxmaz, mübariz övladları öz şəhidlikləri ilə imperiya xislətli, erməni qiyafəli ölümə qələbə çaldılar".

Azərbaycan Dənizçilik Akademiyasının baş müəllimi, əmək veteranı Hüseyn Məmmədov fikrini öncə xalqımıza xas, poetik ifadə etdikdən sonra bildirdi ki, öz ölkəsinin, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan mərd Vətən övladları canlarından keçərək, o gecə şəhidlik zirvəsinə ucaldılar: "Böyük itkilərlə, günahsız insanların qətli ilə nəticələnən 20 Yanvar cinayətkar imperiya rəhbərliyinin Azərbaycana qarşı xəyanətkar siyasətinə dözməyən, öz azadlığına, müstəqilliyinə can atan xalqımızın həm də mübarizliyini, əyilməzliyini, məğrurluğunu nümayiş etdirdi. Məhz bunun nəticəsində uzun illərdən bəri arzusunda olduğumuz müstəqilliyə qovuşduq".

Müqəddəs and yerinə çevrilən Şəhidlər xiyabanına 30 ildir ki, yaşından, dini mənsubiyyətindən, sosial mənşəyindən asılı olmayaraq, nəinki Azərbaycan vətəndaşları gəlir, ümumiyyətlə, paytaxtın əcnəbi qonaqları, yaxın-uzaq ellərdə yaşayan soydaşlarımız da Vətənin azadlığı və müstəqilliyi uğrunda canından keçənləri burada doğmaları kimi yad edir, ruhlarına dualar oxuyurlar. Yeni ailə quran gənclərimizin də and yerinə çevrilib bu müqəddəs məkan.

Şəhidlər xiyabanı qərənfil libasına bürünərək, növbəti 30-cu anım günündə də ziyarətçilərini beləcə - həm qüssəkədərli, həm də qürurla qarşıladı. Şəhidlərə yüksək ehtiramlarını göstərməyə gələnlər isə gecəyə kimi bu müqəddəs ünvanda oldular.

***Reportajı hazırladılar:***
***Zöhrə FƏRƏCOVA,***
***Məhəmməd NƏRİMANOĞLU,***
***Ağaəli MƏMMƏDOV (foto),***
***"Azərbaycan"***

# Vətən övladları xalqımızın tarixinə qəhrəmanlıq səhifəsi yazdılar

O gün təpədən-dırnağadək ən müasir hərbi sursatlarla silahlanmış böyük bir ordunun hissələri dinc əhalinin üzərinə yeridildi. Beləcə, dünya 1990-cı ilin yanvarında misli görünməmiş bir qəddarlığın, ədalətsizliyin şahidi oldu. Yetmiş il sonra XI Qırmızı ordunun əli yenidən azərbaycanlıların qanına boyandı. Uşaq, gənc, ağsaqqal, tibb işçisi... demədən qarşılarına çıxanları amansızlıqla güllələyir, ağır zirehli texnikanın altına salaraq əzib keçirdilər.



O gecə Bakının ən dəhşətli, ən müsibətli gecələrindən biri oldu. Kommunist rejimi hakimiyyətini itirmək qorxusu ilə azadlıq, istiqlaliyyət, müstəqillik arzusunda olan dinc əhaliyə divan tuturdu...

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə çox insanı əbədi həsrətə, ayrılığa düçar etdilər, neçə-neçə evə, ocağa həmişəlik dərd, qüssə gətirdilər. O gecə Qocamanovların ailəsinin xoşbəxtliyini yarımçıq qoydular. 20 Yanvar şəhidi Əliyusif Qocamanovun həyat yoldaşı Elmira xanım o vaxtadək keçirdikləri gözəl günləri xatırlayır. Deyir ki, Əliyusif çox mehriban, zəhmətsevər, ailəcanlı adam idi. İki yerdə işləyirdi. Çalışırdı ki, ailəsi rahat yaşasın, övladları ehtiyac nə olduğunu bilməsinlər.

Əliyusif Qocamanov 1933-cü ildə dünyaya göz açıb. Əslən Göyçə mahalından olsa da, Ağsuda yaşayıblar. Sonradan Bakıya gəliblər. Burada taleyini dənizə bağlayıb. Yaşadıqları "Xəzər" kinoteatrının üstündəki evlərini də Əliyusif Qocamanova uzun illər çalışdığı "Kaspar"dan veriblər. Onun gəmidəki matros işi növbəlilik qaydasında idi. İki gün işdə, iki gün evdə olurdu. Boş oturmaqdan xoşu gəlməzdi. Evdə olduğu günlərdə də yaşadıqları yerin yaxınlığında yerləşən "Naxçıvan" mehmanxanasının yanındakı qəzet köşkündə işləyirdi.

Qohum-qonşu, iş yoldaşları onu xeyirxah, əliaçıq, mərhəmətli insan kimi tanıyırdılar. Ailəsini çox sevir, qızları Maralın, Şəhlanın və sonbeşiyi Hüseynin bir dediyini iki etməzdi. Şəhidin böyük qızı Maral Zamanova ömrünün atalı günlərini xoş təbəssümlə yada salır: "Atam bizi çox istəyirdi. Biz öyrəşmişdik, bilirdik ki, o, hər səhər gəlib bizi öpüb sonra işə gedəcək. Evimiz ikinci mərtəbədəydi. İşdən evə dönüb birinci mərtəbəyə çatanda astadan öskürürdü. Bilirdik ki, atamız gəlir, özümüzü yığışdırırdıq..."

Bir müddət əvvəl mitinqlər başlamışdı. Hər kəs kimi onların da rahat həyatlarına narahatlıq, gərginlik qarışmışdı. O gün də Əliyusif Qocamanov növbədən qayıtmışdı. Şəhərdə gəzən söhbətləri eşitmişdi. Amma hər kəs kimi, o da həmin gecənin dəhşətli faciələr gətirəcəyindən xəbərsiz idi...

Şəhər qazan kimi qaynayırdı. Maral xanım deyir: "O axşam gördüm ki, atam çox pis olub. "Cavanlara yazığım gəlir" dedi və gözləri doldu. Ona təsəlli vermək üçün dilləndim: "Ay ata, hər şey yaxşı olacaq".

Axşam qəflətən televizor sönəndə təəccüblə bir-birlərinə baxdılar. Əvvəlcə elə güman etdilər ki, problem yalnız onlardadır. Sonra öyrəndilər ki, qonşularda da vəziyyət eynidir.

Əliyusif Qocamanov millətinin, vətəninin azadlığı naminə küçələrə çıxan cavanlardan nigaran idi. Evdə qərar tuta bilmirdi. Küçəyə çıxdı, sonra evə döndü. Bu vaxt bayırdan gələn güllə səslərinə diksindilər. Əliyusif kişi cəld yerindən qalxdı. Tələsik plaşını geyinə-geyinə bloka yönəldi. Qızı Şəhla həyəcanla: "Ay ata, bizi yetim qoyma" dedi. Qızını dinləmədən evdən çıxdı. Elə o gedən oldu...

Getdikcə atəş səsləri güclənirdi. Güllələrin, tankların gurultusu dəhşətli qışqırıq səslərinə qarışmışdı. Öyrəndilər ki, şəhərə yeridilən qoşun əhaliyə xəbərdarlıq etmədən atəş açıb. Heç kim əvvəl inanmaq istəmirdi ki, hökumət öz vətəndaşlarına qarşı belə qəddar, amansız olar. İşıqlar sönmüşdü. Hər tərəf qaranlıq idi. Bu zülmətin içərisində fəryad səsləri yüksəlirdi.

"Atam evdən çıxanda dedi ki, narahat olmayın, harada olsam, gecə qayıdacağam". Maral xanım sonralar atası haqqında hadisə şahidlərindən eşitdikərini də danışır: "Deyirlər ki, atam küçədə cavanlara xəbərdarlıq edirmiş ki, hara gedirsiniz güllənin altına?! Sizi vurarlar! Yerə sərilən yaralıları gördükcə tez-tələsik özünü onlara yetirir, xəstəxanaya çatdırılmalarına yardım edirmiş. Qonşumuz deyir ki, onun özünü də güclə bloka saldıq, söylədik ki, Əliyusif dayı, səni də vurarlar". Yenə küçəyə çıxıb. Cavanlara görə çox narahatmış. Yenə yaralılara kömək göstərib. Atəş açanlara qışqırırmış: "Bu uşaqlar sizə neyləyiblər? Axı niyə atəş açırsınız? Yumruğunu düyünləyərək havaya qaldırıb. Yəqin ki, yenə atəş açmayın demək istəyirmiş. Amma bu dəfə snayperdən ürəyinə saplanan güllə sözlərini söyləməyə imkan verməyib. Yumruğu düyünlü qalmışdı".

O gecəni dirigözlü açıblar. Səhərədək axtarıblar. Ancaq Əliyusif kişini gördüm deyən olmayıb. Maral xanım o dəhşətli gecəni belə xatırlayır: "Silahlı əsgərlər bizə düşmən kimi baxırdılar. Hər tərəf meyit idi, əsgərlər bizi yaxınlaşmağa qoymurdular. Təcili yardım maşınları yaralıları xəstəxanalara daşıyırdı. Əsgərlər həkimlərin də üzərinə silah çəkirdilər. Sübhdən Mərkəzi Komitəyə getdim. Binanın qarşısında adam əlindən tərpənmək mümkün deyildi. Mən də yaxınlaşdım. Dedim ki, atamı axtarıram və onun adını, soyadını söylədim. Yaxınlıqdakı telefon budkasından evə zəng vurdum. Anamla danışdım. O, yenə bu sözləri söylədi: "Ay qızım, atan ola, evə gəlməyə?! Atanı öldürüblər". Maşınla "Semaşko"ya getdim. Orada meyitxanada atamı tapdım. Demə, bacım da gəlib yaralıların arasında onu axtarırmış. Gördüm, bacım meyitxanaya doğru gəlir. İstəmədim atamı elə görsün. Dedim ki, qoymayın onu. Bacımı tutdular. İkimizi də oturtdular. Bizə su verən qız dedi ki, siz heç olmasa ölüsünü tapmısınız..."

Həmin vaxt ailənin yeganə oğlu Hüseyn Moskvada hərbi xidmətdə idi. Qara xəbər ona da çatdırıldı...

Əliyusif Qocamanovun doğmaları heç zaman onun yoxluğuna alışa bilməyiblər. Maral xanım deyir: "Uzun illər qulağım səsdə qaldı. Hər gecə saat 10-da elə bilirdim atam yenə gələcək..." Təsəlliləri odur ki, 20 Yanvar şəhidlərinin arzusu, ümidi həyata keçdi. Otuz il əvvəl milli azadlıq, ölkəsinin ərazi bütövlüyü uğrunda mübarizəyə qalxmış dinc əhaliyə divan tutulması, kütləvi terror nəticəsində onlarla günahsız insanın qətlə yetirilməsi, yaralanması, ömürlük şikəst olması totalitar sovet rejiminin cinayətkarlığını bütün dünyaya bir daha nümayiş etdirdi. SSRİ kimi nəhəng imperiya süquta uğradı. Mərd, mübariz, qorxmaz övladların Vətəni olan Azərbaycan yenidən öz müstəqilliyinə qovuşdu. Bu yolda Əliyusif Qocamanov kimi canından keçənlərin övladları, nəvələri bu gün müstəqil dövlətdə yaşayırlar.

1990-cı ilin qanlı yanvar qırğınını törədənlər Azərbaycan xalqının iradəsini, milli azadlıq uğrunda mübarizə əzmini qıra bilmədilər. O dəhşətli gecədə həlak olan Vətən övladları tariximizə qəhrəmanlıq səhifəsi yazdılar. Onların fədakarlıqları, günahsız axıdılan qanları xalqımızın milli azadlığına, müstəqilliyinə yol açdı.

***Z.FƏRƏCOVA,***
***"Azərbaycan"***



# QANLI YANVAR -30 İL





## Şəhidlərin xatirəsi abidələri önündə anıldı

Onlara ən böyük abidə əslində qəlbimizdə ucaldılıb. O ucalıqda 20 Yanvar şəhidlərinin hər biri olduqca möhtəşəmdir, əzəmətlidir...

Azərbaycan xalqı 1990-cı ilin yanvarında öz azadlığını və dövlət müstəqilliyini bərpa etmək üçün meydanlara çıxdı. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet qoşun hissələri yetmiş il sonra bir də qanlı əlini Azərbaycana uzatdı. Məqsəd yenə də bir xalqın azadlıq harayını susdurmaq idi. Bakının hər yerində olduğu kimi, şimal qapısında da aramsız güllə səsləri eşidildi. İndi "20 Yanvar dairəsi" adlanan həmin yer şəhid qanına boyandı.

O gecənin şəhidləri yeni bir nəslin azadlıq dastanını yazdılar. Sonradan imperiya qüvvələrinin törətdikləri cinayətləri ört-basdır etmək cəhdləri boşa çıxdı. Çünki o qanlı yanvar gecəsində baş verən hadisələri, qurban gedənləri Azərbaycan xalqı unudulmağa qoymadı. 20 Yanvar faciəsinə elə o matəm günlərindən başlayaraq neçə-neçə əsər həsr olundu. Şairlər, yazıçılar, bəstəkarlar, rəssamlar, heykəltəraşlar bu gün də o tarixi hadisələrə yeni-yeni əsərlər ithaf edirlər.

20 Yanvar faciəsi qurbanlarının xatirəsinə həsr edilmiş ən dəyərli əsərlərdən biri də 1990-cı ildə paytaxta hücum edən sovet qoşununun şəhərə daxil olduğu istiqamətdə - Bakının şimal qapısında ucaldılan "20 yanvar abidə kompleksi"dir.

Kompleksin tikintisinə 2009-cu ilin oktyabrında başlanıldı. Memar Ədalət Məmmədov, heykəltəraşlar Azad Əliyev və Cavanşir Dadaşov xalqın mübarizlik ruhunun, yenilməzliyinin simvolu olan elementlərdən böyük məharətlə istifadə edərək möhtəşəm abidə-kompleks yaratdılar.

Bir vaxtlar bu ərazidə XI Qızıl ordunun şərəfinə qoyulmuş abidə var idi. 1990-cı ildə sovet ordusu Bakıda kütləvi qırğınlar törətdikdən sonra həmin abidə-kompleks götürüldü. Ərazinin yaxınlığında, Bakının Yasamal rayonunda, Həsən bəy Zərdabi və Müzəffər Həsənov küçələrinin kəsişməsində "20 yanvar abidə kompleksi" ucaldıldı. Memorial kompleksin ümumi sahəsi 1500 kvadratmetrdir.

Kompleksin divarı Afrika və Ukraynadan gətirilmiş qranit plitə ilə üzləndi. Abidənin ətrafındakı meydana da qranit plitə döşəndi. Layihəyə əsasən abidənin arxa hissəsindəki park abadlaşdırıldı, kompleksin qarşısında müasir işıqlandırma sistemi quraşdırıldı. Xatirə kompleksinin mərkəzində hündürlüyü postamentlə birlikdə 8 metr olan əzəmətli abidə qoyuldu. Abidənin üzərində 20 yanvar qətliamında həlak olanların adı və soyadı, eləcə də Ulu Öndər Heydər Əliyevin Qanlı Yanvar hadisələri ilə bağlı dediyi "1990-cı il yanvarın 20-si Azərbaycanın tarixinə ən faciəli günlərdən biri, eyni zamanda, xalqımızın qəhrəmanlıq səhifəsi kimi daxil olmuşdur" sözləri qızılı hərflərlə həkk olundu. Postamentdə "20 Yanvar şəhidlərinin əziz xatirəsinə" sözləri yazıldı.

Azərbaycanın paytaxtında "20 Yanvar abidə-kompleksi"nin açılışı 20 yanvar 2010-cu ildə oldu. Açılış mərasimində Prezident İlham Əliyev iştirak etdi.

20 Yanvar faciəsindən otuz il ötür. Azərbaycan xalqı şəhidlərin qanı bahasına qazandığı azadlığını əzmlə, qürurla qoruyur, nəsildən-nəslə ötürür. Müstəqilliyimiz yolunda canını qurban verən şəhidlərin xatirəsi yaşayır və yaşayacaq. "20 yanvar abidə kompleksi" də vətənsevərlərin ziyarət yerinə çevrilib. Bu abidə təkcə 20 Yanvar faciəsinin dərdini, fəryadını anlatmır, həm də xalqımızın mərdliyini, soydaşlarımızın vətən sevgisinin ölməzliyini qranit lövhədə ifadə edir.

Hər il olduğu kimi, bu il də Bakı Metropoliteninin "20 Yanvar" stansiyasının üzərindəki 20 Yanvar dairəsində şəhidlərin xatirəsinə ucaldılmış abidə kompleksini ziyarətə gələnlərin ardı-arası kəsilmədi. Ahıl da, gənc də, uşaq da bu abidəni ziyarət etməyi özünə borc bildi. Abidənin yaxınlığında səslənən kədərli musiqi də otuz illik ayrılığın ağrı-acısını əks etdirirdi. Əllərində tər çiçəklər tutmuş adamların baxışlarından həm də qürur, mübarizlik boy verirdi.

Yasamal rayonunda fəaliyyət göstərən idarə və müəssisələrin kollektivləri, paytaxt ictimaiyyətinin nümayəndələri faciənin 30-cu ildönümü ilə əlaqədar 20 Yanvar meydanındakı abidə kompleksinin önünə əklil qoyub, gül düzüb, şəhidlərin xatirəsinə öz ehtiramlarını ifadə etdilər.

Ziyarətə gələnlər arasında Qarabağ Müharibəsi Əlilləri Veteranları və Şəhid Ailələri İctimai Birliyinin Yasamal rayon təşkilatının sədri Bəhram Şeydayev 20 Yanvar dairəsində baş verənləri yada saldı: "1990-cı ilin yanvarında sovet imperiyası milli azadlıq hərəkatını boğmaq üçün Bakıda qırğın törətdi. O zaman igid Azərbaycan oğulları və qızları küçələrdə hərbi texnikanın önünə əliyalın çıxmışdılar. Bu hadisələr zamanı qətlə yetirilənlərin çoxu məhz burada gülləyə tuş gəlib. Yanvarın 19-da gecə bu əraziyə çoxlu insan yığılmışdı. Tankların insanlara doğru hərəkət etdiyini gördük. Respublika xəstəxanasının yanından insanlara - uşaq, gənc, ahıl demədən, hamıya atəş açırdılar. Ölən və yaralananların sayı çox idi. Bəşər tarixində belə bir faciə törədilməmişdi. 20 Yanvar günü insanlar qətl edilsələr də, onların azadlıq səsini boğa bilmədilər".

B.Şeydayev diqqətə çatdırdı ki, Ümummilli Lider Heydər Əliyev bütün çətinliklərə baxmayaraq, 1990-cı il yanvarın 21-də siyasi iradə nümayiş etdirərək Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gedib və SSRİ rəhbərliyinin törətdiyi bu cinayətin humanizmə zidd olduğunu bəyan edib. Bakıda törədilmiş cinayətlər haqqında həqiqətlərin ilk dəfə dünya ictimaiyyətinə çatdırılmasında onun bu qətiyyətli addımı mühüm əhəmiyyət kəsb edir. Ulu Öndər böyük cəsarət göstərərək 1990-cı ilin 20 Yanvar faciəsinə əsl siyasi-hüquqi qiymət verməklə yanaşı, "20 Yanvar Şəhidi" fəxri adını da təsis edib. Ümummilli Lider Heydər Əliyevin hakimiyyətdə olduğu dövrlərdə şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında, həlak olanların ailələrinə yardım göstərilməsi istiqamətində müxtəlif fərman və sərəncamlar imzalanıb. Şəhid ailələrinin və əlillərin sosial müdafiəsi ilə bağlı dövlət siyasəti hazırda Ümummilli Liderin layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

B.Şeydayev hazırda dövlət tərəfindən şəhid ailələrinə, əlillərə diqqət və qayğı, maddi, mənəvi dəstək göstərildiyini vurğulayıb. Şəhid ailələri dövlət tərəfindən birdəfəlik müavinət və təqaüd alır, dövlət büdcəsi hesabına mənzil və avtomobillərlə təmin edilirlər. Şəhid ailələrinin və əlil olmuş şəxslərin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə dövlət başçısının imzaladığı fərmanlar göstərilən diqqət və qayğının əyani təzahürüdür. B.Şeydayev bildirib: "Biz də çalışırıq ki, övladlarımız vətənpərvər ruhda tərbiyə alsınlar. Torpaqlarımızı işğaldan azad etmək üçün bizdə vətənpərvərlik ruhu daim yüksək olmalıdır. İnanırıq ki, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımız erməni işğalından azad olunacaq".

Bu hadisələrin hər il xatırlanması və kütləvi tədbirlərlə qeyd olunması bir daha göstərir ki, Vətən uğrunda canını fəda etmiş şəhidlərimizin xatirəsi Azərbaycan xalqının qəlbində əbədi yaşayacaq.

***Zöhrə FƏRƏCOVA,***
***Fərman BAĞIROV (foto),***
***"Azərbaycan"***

## Naxçıvanda 20 Yanvar faciəsinin otuzuncu ildönümü yad edilib





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2019-cu il dekabrın 13-də "20 Yanvar faciəsinin otuzuncu ildönümü haqqında" sərəncam imzalayıb, ölkəmizdə 20 Yanvar faciəsinin otuzuncu ildönümünə həsr olunmuş anma mərasimlərinin keçirilməsi qərara alınıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, yanvarın 20-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Qanlı Yanvar faciəsində həlak olanların və şəhidlərin əziz xatirəsini yad etmək üçün Naxçıvan şəhərindəki Şəhidlər Xiyabanına gəlib.

Ali Məclisin Sədri xiyabandakı "Ana" abidəsinin önünə əklil qoyub, şəhidlərin xatirəsinə ehtiramını bildirib.

Sonra Dövlət himni səslənib.

Ali Məclisin Sədri şəhid məzarlarını və 1918-1920-ci illərdə erməni daşnakları ilə mübarizədə Naxçıvanın köməyinə gələn qardaş Türk ordusunun şəhid olmuş əsgərlərinin xatirəsinə ucaldılmış abidəni ziyarət edərək güllər qoyub.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, Nazirlər Kabinetinin, nazirlik, komitə və digər mərkəzi təşkilatların, məhkəmə, hüquq mühafizə orqanlarının, hərbi hissələrin, elm, təhsil, mədəniyyət və səhiyyə müəssisələrinin kollektivləri, Naxçıvan Şəhər İcra Hakimiyyətinin, ictimai təşkilatların və yaradıcılıq birliklərinin, kütləvi informasiya vasitələrinin əməkdaşları, şəhər sakinləri şəhidlərin əziz xatirəsini ehtiramla yad ediblər.

Sonra Ali Məclisin Sədri Xatirə Muzeyinə gəlib.

Məlumat verilib ki, muzeydə şəhidlərin fotoşəkilləri, şəxsi sənədləri, döyüş fəaliyyətlərini əhatə edən materiallar, eyni zamanda qəhrəmanlıq tariximizin müxtəlif dövrlərinə aid kitablar mühafizə və nümayiş etdirilir. Muzeyin fondundakı 2 minə yaxın eksponat xalqımızın soyqırımı tarixi üzrə dövrləşdirilərək yerləşdirilib.

Ali Məclisin Sədri Xatirə Muzeyində məktəblilərin iştirakı ilə açıq dərslərin keçirilməsi və qəhrəmanlıq tariximiz barədə gənc nəslin məlumatlandırılmasının vacibliyini vurğulayıb.

Həmin gün saat 12:00-da muxtar respublikada şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Naxçıvan Muxtar Respublikasının rayon mərkəzlərində də 20 Yanvar faciəsinin otuzuncu ildönümü ilə bağlı tədbirlər keçirilib.

## Sükut dəqiqəsi



Foto Fərman BAĞIROVUNDUR

Yanvarın 20-də Bakı vaxtı ilə saat 12:00-da Azərbaycanın bütün ərazisində 20 Yanvar şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla yad olunub, gəmilərdən, avtomobillərdən və qatarlardan səs siqnalları verilib, hüzn əlaməti olaraq dövlət bayraqları endirilib.

AZƏRTAC xəbər verir ki, Qanlı Yanvar faciəsinin otuzuncu ildönümünün keçirilməsi ilə əlaqədar tədbirlər planına uyğun olaraq, respublikanın bütün şəhər və rayon, kənd və qəsəbələrində, idarə və təşkilatlarında 20 Yanvar hadisələri ilə bağlı anma mərasimləri keçirilib. Yüz minlərlə insan yanvarın 20-də səhər saatlarından başlayaraq Şəhidlər xiyabanını ziyarət edib, qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla anıb, məzarları üzərinə qərənfillər düzüblər.

## Xarici İşlər Nazirliyi 20 Yanvar faciəsi ilə bağlı bəyanat yayıb

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi 20 Yanvar faciəsi ilə bağlı bəyanat yayıb.

Nazirliyin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a daxil olan bəyanatda deyilir:

"1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə SSRİ rəhbərliyinin əmri ilə 26 min nəfərlik sovet ordusu Azərbaycanın Bakı və Sumqayıt şəhərlərinə, eləcə də ölkənin digər şəhərlərinə yeridilərək "Udar" adlı əməliyyatı həyata keçirdi. Bu hərbi müdaxilə nəticəsində 147 mülki şəxs qətlə yetirildi və 744 nəfər ağır xəsarət aldı. Bu hadisə müasir Azərbaycan tarixinə Qara Yanvar kimi daxil oldu.

1990-cı il yanvarın 19-da SSRİ Ali Sovetinin sədri M.Qorbaçov SSRİ Konstitusiyasının 119-cu, Azərbaycan SSR Konstitusiyasının 71-ci maddələrini kobud şəkildə pozaraq, yanvarın 20-dən Bakıda fövqəladə vəziyyət elan edilməsi haqqında fərman imzaladı. Lakin əhalinin bundan məlumatsız qalması üçün SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin "Alfa" qrupu tərəfindən Azərbaycan Televiziyasının enerji bloku partladıldı və respublikada televiziya verilişləri dayandırıldı. Beləliklə, həmin gecə qoşunlar fövqəladə vəziyyətin elan edilməsindən xəbərsiz olan şəhərə daxil olaraq dinc əhaliyə amansız divan tutdu.

Bu faciəvi hadisələrdən əvvəl, 1980-ci illərin sonunda Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddiaları, Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayətindəki şovinist təfəkkürlü ermənilərin aqressiv separatçılıq fəaliyyəti, SSRİ rəhbərliyinin bu qanunsuz fəaliyyətə göz yumması, yüz minlərlə azərbaycanlının zor gücü ilə və qəddarcasına Ermənistandan deportasiya edilməsi Azərbaycanda sovet hakimiyyətinə qarşı hərəkatın genişlənməsinə təkan verdi. Məhz ümumxalq hərəkatının qarşısını almaq və Azərbaycan xalqının müstəqillik əzmini qırmaq məqsədilə ölkəyə yeridilən sovet ordusu beynəlxalq hüququn normalarını, keçmiş SSRİ və Azərbaycan SSR-in konstitusiyalarını kobudcasına pozaraq dinc əhaliyə qarşı görünməmiş qırğın törətdi.

Faciəvi hadisələrdən dərhal sonra Ümummilli Lider Heydər Əliyev Azərbaycanın Moskvadakı daimi nümayəndəliyində mətbuat konfransı keçirərək bu vəhşiliyi kəskin şəkildə pislədi, dinc xalqa qarşı törədilən terroru hüquqa, demokratiyaya və insanlığa zidd aksiya adlandırdı, xalqımıza qarşı törədilmiş qırğına siyasi qiymət verilməsini və günahkarların cəzalandırılmasını tələb etdi. Ümummilli Lider Heydər Əliyev Azərbaycanda siyasi hakimiyyətə qayıtdıqdan sonra faciəyə dövlət səviyyəsində siyasi-hüquqi qiymət verildi. Milli Məclisin 1994-cü ilin fevralında keçirilən xüsusi sessiyasında 1990-cı il yanvarın 20-də günahsız insanların qəddarcasına qətlə yetirilməsi hərbi təcavüz və cinayət kimi qiymətləndirildi və müzakirələrin yekunu olaraq 1994-cü ilin martında "1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında" qərar qəbul edildi.

Tariximizin reallıqlarının düzgün təhlil edilməsi və qiymətləndirilməsi üçün 20 Yanvar faciəsinə gətirən hadisələrin doğru dəyərləndirilməsi zəruridir. Bütün bu bəlaların əsasında XIX əsrin əvvəllərindən etibarən bölgəyə kütləvi şəkildə köçürülməyə başlayan və xüsusilə də Azərbaycanın tarixi torpaqlarında məskunlaşan ermənilərin əsassız ərazi iddiaları durub.

XX əsrin əvvəllərindən etibarən Azərbaycan xalqı erməni millətçilərinin zorakı və irqi ayrı-seçkilik siyasəti ilə üz-üzə qalıb və misilsiz qətliamların qurbanı olub. 1980-ci illərin sonlarından etibarən SSRİ-nin parçalanması ilə Ermənistan Azərbaycana qarşı açıq təcavüzkar siyasət həyata keçirməyə başladı və nəticədə Azərbaycanın Dağlıq Qarabağ bölgəsi və ətraf yeddi rayonu işğal olundu. Ermənistan ərazisində daimi yaşayan və zor gücü ilə qovulan azərbaycanlılardan əlavə, işğal olunmuş ərazilərimizdə tarixən yaşayan yüz minlərlə azərbaycanlı etnik təmizləməyə məruz qaldı. Azərbaycana olan ərazi iddialarına hər hansısa "əsas" tapmağa çalışan radikal təfəkkürlü erməni qüvvələri tərəfindən hələ 1988-ci ildə Sumqayıt şəhərində planlı şəkildə təxribat həyata keçirildi. SSRİ Baş Prokurorluğunun istintaq sənədlərinə əsasən başlıca təşkilatçılardan olan etnik erməni Eduard Qriqoryan 12 il həbs cəzasına layiq görüldü. Sonradan öz cəzasını çəkmək üçün Ermənistana göndərilən bu cinayətkarın qısa müddət sonra Ermənistanda azadlığa buraxılması hadisənin günahkarlarını ifşa edən bariz faktdır.

Otuz il bundan öncə baş vermiş qanlı 20 Yanvar hadisələri beynəlxalq ictimaiyyətin siyasi-hüquqi qiymətləndirilməsini tələb edir. Bu dəhşətli facié nəticəsində BMT-nin Ümumdünya İnsan Hüquqları Bəyannaməsi, Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt və digər beynəlxalq hüquqi sənədlər kobud şəkildə pozulub, öz mahiyyətinə və miqyasına görə bu hadisə XX əsrdə törədilmiş dəhşətli cinayətlərdən biridir. Bu cinayətə görə keçmiş sovet rəhbərliyi bilavasitə məsuliyyət daşıyır. Beynəlxalq hüquqa əsasən 20 Yanvar hadisələri insanlıq əleyhinə cinayət kimi tövsif edilməli, onun sifarişçiləri və icraçıları cəzalandırılmalıdır".

## İnsanlara "Vicdanın hökmü" tələbi



1990-cı ilin qanlı yanvarı xalqımızın azadlıq mübarizəsinə doğru atılan addımının qarşısının sovet ordusu tərəfindən vəhşicəsinə alınması kimi anılmaqdadır. Azadlıq təşnəsini qanla dolduran qüvvələrin əməlləri üstündən 30 illik zaman keçsə də xatırlanır, onların çirkin əməllərinin bəşəriyyətə təhlükə olduğu bildirilir.

Sumqayıtlılar hər zaman milli özünüdərk, milli təşəkkül prosesində öncüllərdən olublar. 20 Yanvar gecəsində 3 nəfər görkəmli alimimizin olduğu avtomobil Sumqayıt-Bakı yolunda tank tırtılları altında qalıb. Hər il şəhər rəhbərliyi, ictimaiyyət Şəhidlər xiyabanı ilə bərabər alimlərimizin də xatirə kompleksini ziyarət edib əklil qoyurlar.

Sumqayıt Dövlət Dram Teatrı da hər zaman tarixi-mədəni irsə, xalqın taleyində önəmli rol oynamış hadisələrə, milli-mənəvi dəyərlərə özünün diqqət çəkən repertuarı ilə münasibət bildirir.

Bu dəfə də kollektiv öz əhdinə sadiq qalıb. Teatrın repertuarında yer alan H.Mirələmovun "Vicdanın hökmü" əsəri 20 Yanvar faciəsinə həsr olunub. Bu il də 20 Yanvar ərəfəsində əsər bütün yaş kontingentindən olan tamaşaçılar üçün nümayış etdiriləcək. Teatrın kollektivi həmin tamaşanı şəhərin kinoteatrlarında, universitet və digər təhsil ocaqlarında da təqdim etməyi planlaşdırıb.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

## Kürdəmirdə 20 Yanvar şəhidləri anıldı



Ölkənin qabaqcıl peşə təhsili ocaqlarından olan Kürdəmir Peşə Liseyi və yerli Olimpiya İdman Kompleksinin birgə təşkilatçılığı ilə 20 Yanvar şəhidlərinin xatirəsinə ehtiram əlaməti olaraq anım mərasimi və futzal turniri keçirilmişdir.

Liseyin fiziki tərbiyə rəhbəri, Əməkdar bədən tərbiyəsi və idman xadimi, fəxri bədən tərbiyəsi və idman işçisi, yunan-Roma güləşi üzrə veteranlar arasında dünya çempionatının yeddiqat mükafatçısı Əlsahab Abbasovun verdiyi məlumata görə, Prezident İlham Əliyevin "20 Yanvar faicəsinin 30-cu ildönümü haqqında" sərəncamında qeyd olunduğu kimi, xalqımız mübariz oğul və qızlarının şücaətini daim yüksək qiymətləndirir, onların ruhuna ehtiram göstərir, xatirəsini hər zaman uca tutur: "Biz də bu sərəncamdan irəli gələn vəzifələri rəhbər tutaraq, milli müstəqillik uğrunda canlarından keçmiş Vətən övladlarının xatirəsini ehtiramla anaraq mərasim keçirmiş, yeniyetmələrə və gənclərə 30 il öncə baş vermiş hadisələr barədə dolğun məlumat vermişik".

Bundan əlavə, liseyin tələbələri arasında futzal turniri təşkil edilmişdir. Yarışın qalibləri kubok və fəxri fərmanla təltif olunmuşlar.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# Azərbaycan və Gürcüstanın Müdafiə nazirlikləri arasında 2020-ci il üçün ikitərəfli əməkdaşlıq Planı imzalanıb

Gürcüstanda səfərdə olan Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov yanvarın 21-də bu ölkənin Müdafiə naziri İrakli Qaribaşvili ilə görüşüb. AZƏRTAC xəbər verir ki, Gürcüstan Müdafiə Nazirliyində Azərbaycan nümayəndə heyətinin qarşılanma mərasimi olub.

Protokola uyğun olaraq, Müdafiə nazirləri fəxri qarovulun önündən keçdikdən və dövlət himnləri səsləndirildikdən sonra görüş keçirilib.

Görüşdə ölkələrimiz arasında hərbi əməkdaşlığın müxtəlif sahələri və qarşılıqlı maraq doğuran digər məsələlər barədə ətraflı fikir mübadiləsi aparılıb. Regiondakı hərbi-siyasi vəziyyətə toxunan tərəflər ölkələrimizin ərazi bütövlüyünün qarşılıqlı şəkildə dəstəklənməsinin vacibliyini qeyd edərək, ikitərəfli hərbi əməkdaşlığın inkişafının bölgədə sabitliyin və təhlükəsizliyin təmin olunmasına töhfə verəcəyini xüsusi vurğulayıblar. Görüşdə Azərbaycan və Gürcüstanın Müdafiə nazirlikləri arasında 2020-ci il üçün ikitərəfli əməkdaşlıq Planı imzalanıb. Sənəddə ekspert qruplarının qarşılıqlı səfərlərinin təşkili, birgə döyüş hazırlığı tədbirlərinin keçirilməsi, qabaqcıl təcrübə mübadiləsi və digər vacib məsələlər nəzərdə tutulur.

Sonra Müdafiə nazirlərinin kütləvi informasiya vasitələrinin nümayəndələri üçün mətbuat konfransı olub.

Azərbaycanın Gürcüstandakı səfiri Dursun Həsənov da görüşdə iştirak edib.

# *Zakir HƏSƏNOV:* "Azərbaycan və Gürcüstan həm ikitərəfli, həm də üçtərəfli formatlarda səmərəli əməkdaşlıq edir"

Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov və Gürcüstanın Müdafiə naziri İrakli Qaribaşvili yanvarın 21-də Tbilisidə keçirilən görüşdən sonra mətbuata bəyanatla çıxış ediblər.



AZƏRTAC xəbər verir ki, İrakli Qaribaşvili görüşün əhəmiyyətini qeyd edərək, Gürcüstanın ərazi bütövlüyünün təmin olunmasında göstərdiyi dəstəyə görə ölkəsinin adından Azərbaycan tərəfinə minnətdarlığını bildirib. O deyib ki, Gürcüstan ikitərəfli münasibətlərin inkişafına xüsusi diqqət yetirir. Azərbaycan ilə Gürcüstan arasında 2020-ci ildə hərbi sahədə əməkdaşlığa dair fəaliyyət planının imzalanması bu istiqamətdə əlaqələrimizin inkişafına mühüm töhfə verəcək.

Gürcüstanın Müdafiə naziri ölkələrimiz arasında mövcud dostluq münasibətlərinin 2020-ci ildə daha da inkişaf edəcəyinə əminliyini bildirib.

Azərbaycanın Müdafiə naziri, general-polkovnik Zakir Həsənov yüksək qonaqpərvərliyə görə minnətdarlığını ifadə edərək, ölkələrimiz və xalqlarımız arasında mehriban qonşuluq və yaxın dostluq münasibətlərinin önəminə toxunub. Görüşdə regionda hərbi-siyasi vəziyyətin müzakirə olunduğunu vurğulayan general-polkovnik Zakir Həsənov bildirib ki, Azərbaycan Gürcüstanın ərazi bütövlüyünü tam dəstəkləyir. Biz də bütün beynəlxalq təşkilatlarda həmin dəstəyi Gürcüstan tərəfindən görürük.

Azərbaycanın və Gürcüstanın regionda böyük əhəmiyyətə malik birgə layihələr həyata keçirdiklərini deyən nazir diqqətə çatdırıb ki, ölkələrimiz arasında siyasi, iqtisadi, hərbi və digər sahələrdə əməkdaşlıq uğurla inkişaf edir: "Biz hərbi sahədə həm ikitərəfli, həm də üçtərəfli - Azərbaycan-Gürcüstan-Türkiyə formatlarında səmərəli əməkdaşlıq edirik. Söhbət zamanı regiondakı böyük iqtisadi layihələri və onların təhlükəsizliyinin təmin olunması məsələlərini də nəzərdən keçirdik".

Görüşdə 2020-ci ildə hərbi sahədə əməkdaşlığa dair fəaliyyət planının imzalanmasının əhəmiyyətinə toxunan nazir qeyd edib ki, planda şəxsi heyətin birgə təlimlərinin təşkili və digər tədbirlər nəzərdə tutulub. General-polkovnik Zakir Həsənov ölkələrimiz arasında hərbi əməkdaşlığın uğurla inkişaf edəcəyinə əminliyini bildirib.

# Azərbaycanın Dövlət Sərhəd Xidmətinin rəisi ilə İranın Sərhəd Qoşunları komandanının görüşü olub

Yanvarın 19-da Azərbaycan Respublikasının Astara şəhərində Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyevin və İran İslam Respublikası Sərhəd Qoşunlarının komandanı general-mayor Qasım Rzayinin rəhbərlik etdikləri nümayəndə heyətlərinin işçi görüşü keçirilib.



Tərəflər sərhəd mühafizə qurumları rəhbərlərinin bilavasitə dövlət sərhədində ənənəyə çevrilmiş işçi görüşlərinin əhəmiyyətini müsbət qiymətləndiriblər.

Nümayəndə heyətləri regionda cərəyan edən hadisələr fonunda dövlət sərhədində mövcud əməliyyat şəraitinə dair əhatəli fikir mübadiləsi aparıb, sərhəd təhlükəsizliyinin təminatı məsələləri, dövlət sərhədindən buraxılış məntəqələrində etibarlı sərhəd nəzarətinin təşkil edilməsi, transsərhəd cinayətkarlığın təzahürləri ilə mübarizə üzrə fəaliyyətlərin, əvvəlki görüşlərdə əldə olunmuş razılaşmaların icrasını nəzərdən keçiriblər. Eyni zamanda sərhəd mühafizə strukturlarının qarşısında duran vəzifələrin effektiv icrası baxımından qarşılıqlı əlaqələndirmənin və əməkdaşlığın daha da inkişaf etdirilməsinin vacibliyini vurğulayıblar.

Tərəflər Azərbaycan Respublikasının və İran İslam Respublikasının iştirak etdiyi beynəlxalq əhəmiyyətli nəqliyyat layihələri çərçivəsində sərhəd infrastrukturunun təkmilləşdirilməsi, sərhəd nəzarəti prosedurlarının sürətləndirilməsi məqsədilə həyata keçirilən tədbirləri xüsusi vurğulayıb, bununla yanaşı, "Astara" dəmir yolu buraxılış məntəqəsinin, yeni avtomobil yolu və piyada keçidinin tikintisi ilə bağlı aidiyyəti tədbirlərin əlaqələndirilməsi, dövlət sərhədində qanunsuz fəaliyyətlərlə mübarizənin həyata keçirilməsi və məlumat mübadiləsinin təmin edilməsi, Xəzər dənizində qarşılıqlı əməkdaşlığın davam etdirilməsinin vacibliyini qeyd ediblər.

Görüşdə sərhəd mühafizəsi sahəsində qarşılıqlı maraq kəsb edən məsələlər üzrə müzakirələrin aparılması, əməkdaşlığın inkişaf etdirilməsi məqsədilə işçi görüşlərin davam etdirilməsi barədə razılıq əldə olunub.

***"Azərbaycan"***

# "Azərenerji" və "Azərişıq" 20 Yanvar faciəsini birgə andı





20 Yanvar faciəsinin 30 illiyi ilə bağlı "Azərenerji" və "Azərişıq" Açıq Səhmdar cəmiyyətlərinin kollektivləri birgə tədbir keçiriblər. Şəhidlərin ruhuna ehtiram əlaməti olaraq 1 dəqiqəlik sükutdan sonra 20 Yanvar faciəsinin 30 illiyi ilə bağlı hazırlanan filmin nümayişi olub.

Daha sonra Qarabağ müharibəsi iştirakçısı olan "Azərenerji" ASC-nin vitse-prezidenti Ziyəddin Quliyev, hər iki qurumun digər rəsmi şəxsləri, o cümlədən 20 Yanvar faciəsində yaralanan energetiklər 30 il əvvəl baş verən hadisələrdən danışıblar. Bildirilib ki, Azərbaycan xalqının həyatında və yaddaşında dərin iz qoyan, onun sonrakı taleyinə bilavasitə təsir edən hadisələr sırasında 1990-cı ilin 20 yanvar hadisələrinin özünəməxsus yeri var. Qeyd olunub ki, 20 Yanvar faciəsi çoxsaylı insan tələfatı ilə nəticələnsə də, Azərbaycanın müstəqillik tarixinə qanla yazılan şərəfli tarixdir.

20 Yanvar faciəsinin 30 illiyi ilə bağlı "Azərenerji" ASC-nin elektrik stansiyalarında, regional elektrik şəbəkələrində anım tədbirləri keçirilib. Eyni zamanda "Azərenerji" ASC-də çalışan şəhid ailələrinə birdəfəlik maddi yardım verilməsi ilə bağlı müvafiq əmr verilib.

***"Azərbaycan"***

# IDEA İctimai Birliyi vətəndaşlara müraciət edib

IDEA İctimai Birliyi ağac kəsilməsi, vəhşi heyvanların qanunsuz saxlanması və qaçaqmalçılığı ilə yanaşı, küçə və digər ictimai yerlərdə su sızmalarının aşkar edilməsi halları ilə rastlaşdıqları zaman vətəndaşları IDEA-nın "1113 - Təbiətin təcili yardımı" qaynar xəttinə məlumat verməyə çağırır. İctimai Birlikdən AZƏRTAC-a verilən məlumata görə, xüsusi yaradılmış eyniadlı mobil qrup daxil olan şikayətləri yerində araşdıracaq, foto və videomateriallar toplayaraq, müvafiq dövlət qurumları ilə birlikdə təxirəsalınmaz tədbirlər görəcək.

Məlumdur ki, su həyatı təmin edən əvəzolunmaz nemətdir. Amma təəssüf ki, əksər ölkələrdə məişət suyu itkiləri 20-70 faiz arasındadır və bu itkilər suyun küçə və digər ictimai yerlərdə sızması nəticəsində baş verir. Bununla da əhalisi sürətlə artan dünyada şirin suyun mövcudluğu daha da məhdudlaşa bilər. Su ehtiyatlarından səmərəli istifadə etmək və su itkilərini əhəmiyyətli dərəcədə azaltmaq qarşıda duran önəmli məsələlərdəndir.

Bunu nəzərə alaraq IDEA İctimai Birliyi bir daha hər kəsi ətraf mühitə qarşı məsuliyyətli olmağa, su israfına yol verməməyə və su təchizatı şəbəkələrində sızma və ya qəzalarla bağlı dərhal "1113" qaynar xəttinə məlumat verməyə çağırır!

Qeyd edək ki, "1113 - Təbiətin təcili yardımı" qaynar xətti və mobil qrupu 2014-cü ildə Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə "Ağacların kəsilməsinə yox!" proqramı çərçivəsində yaradılıb. Sözügedən qaynar xəttə daxil olmuş yüzlərlə vətəndaş şikayəti üzrə tədbir görülüb.

# Yol hərəkəti təhlükəsizliyinin vəziyyəti müzakirə olunub

Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazovun iştirakı ilə Baş Dövlət Yol Polisi İdarəsində 2019-cu ildə yol hərəkəti təhlükəsizliyinin təmini sahəsində görülən işlər və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş əməliyyat müşavirəsi keçirilib.



Daxili İşlər Nazirliyinin (DİN) mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nazir V.Eyvazov tədbirin gündəliyini elan edib.

Reqlament təsdiq edildikdən sonra Baş İdarənin rəisi, polis general-mayoru Ramiz Zeynalov görülmüş işlər və qarşıda duran vəzifələr barədə məruzə ilə çıxış edib.

Məruzəçi bildirib ki, yol polisinin maddi-texniki bazasının müasirləşməsi, xidmətin "elektron hökumət" dövlət proqramına uyğun qurulması, qayda pozuntularının texniki vasitələrlə aşkarlanması müasir innovasiyaların tətbiqinə geniş imkan yaradıb. Hesabat dövründə avtomobil yollarında foto və video qeydiyyat funksiyalarına malik xüsusi texniki vasitələrlə yol hərəkətinə nəzarət daha da gücləndirilib. Bütövlükdə 502 radar, 617 videokamera və 296 nömrəoxuma sistemi və digər xüsusi texniki vasitələr quraşdırılıb.

Yaradılan imkanlardan istifadə etməklə əməkdaşlar ötən il ərzində 3,3 milyona yaxın yol hərəkəti qayda pozuntusu aşkarlayıblar. Onların da 64 faizi xüsusi texniki vasitələrin köməyi ilə qeydə alınıb. Qayda pozuntularına görə 7316 nəfərin sürücülük hüququ məhdudlaşdırılıb.

Baş İdarə rəisi təəssüflə bildirib ki, görülmüş tədbirlərə baxmayaraq, ötən il respublika ərazisində 1870 yol-nəqliyyat hadisəsi qeydə alınıb. Nəticədə 821 nəfər həlak olub, 1702 nəfər xəsarət alıb. Bu da 2018-ci illə müqayisədə yol-nəqliyyat hadisələrinin sayının 53 fakt, onların nəticəsində həlak olanların sayının 99 nəfər artması, xəsarət alanların sayının isə 9 nəfər azalması deməkdir. Qeydə alınan ümumi hadisələrin 43,6 faizi piyadaların vurulması ilə bağlı olub ki, nəticədə 329 nəfər ölüb, 527 nəfər xəsarət alıb.

Polis general-mayoru R.Zeynalov bildirib ki, insanları narahat edən məsələlərin həllinə xüsusi həssaslıqla yanaşılması barədə nazirin müvafiq tapşırığına uyğun olaraq ərizə və şikayətlərin obyektiv araşdırılması, qəbulların müntəzəm keçirilməsi diqqət mərkəzində saxlanılıb, Baş İdarədə 1500-ə yaxın vətəndaş qəbul edilib. Daxil olmuş 93 minə yaxın sorğu və müraciət operativ qaydada cavablandırılıb.

Məruzə ətrafında çıxış edənlər görülmüş işlərdən, yol verilmiş nöqsanlardan və onların aradan qaldırılması üçün qarşıda duran vəzifələrdən danışıblar.

Müşavirəyə yekun vuran Daxili İşlər naziri Vilayət Eyvazov Dövlət Yol Polisi Xidmətinin ötənilki fəaliyyətinin nəticələrini ümumən müsbət qiymətləndirib, qarşıda çox mühüm vəzifələrin durduğunu bildirib, onların həlli üçün konkret tapşırıq və tövsiyələrini verib. O, hər bir əməkdaşın vəzifə borcunu layiqincə yerinə yetirməsi, fəaliyyətin bütün sahələrində işlərin uğurlu getməsi üçün peşəkarlığın ən vacib amil olduğunu xatırladıb, eyni zamanda əldə olunan müsbət nəticələrdən arxayınlaşmamağı, daha məsuliyyətlə xidmət aparılmasını tövsiyə edib.

Nazir tələb edib ki, əməkdaşlar hərəkət iştirakçıları ilə ünsiyyətdə kobud rəftardan çəkinməli, etik davranış qaydalarına ciddi riayət etməli, bununla belə qətiyyətli və nəzakətli olmalıdırlar. Eyni zamanda sürücülərə törətdikləri inzibati xətanın yarada biləcəyi mənfi nəticələr izah olunmalı, onlarla lüzumsuz dialoq aparılmasına, kobudluğa və mübahisə yarada biləcək digər hallara yol verilməməlidir.

General-polkovnik V.Eyvazov yol hərəkətinin iştirakçıları, o cümlədən sürücülər arasında cəmiyyətdəki mövqeyinə, tutduğu vəzifəyə, peşəsinə görə özünü qanundan üstün tutan, törətdiyi qayda pozuntusuna rəğmən imtiyaz tələb edən şəxslərin mövcudluğunu təəssüflə xatırladaraq, belələrinə münasibətdə qanunla müəyyən edilmiş qaydada qəti tədbirlərin görülməsini də tələb edib. O, başlıca vəzifənin hərəkət iştirakçılarını cəzalandırmaq deyil, yol hərəkətinin təhlükəsizliyini və tənzimlənməsini təmin etmək, insanların həyat və sağlamlığının avtomobil qəzalarından qorunması kimi vacib və şərəfli vəzifələrin icrasını həyata keçirmək, yol-hərəkəti qaydalarının kobudcasına pozulması hallarının qarşısını almaq olduğunu bildirib.

Xidməti vəzifələrin uğurla yerinə yetirilməsi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən hər cür şərait yaradıldığını, şəxsi heyətin dövlətin qayğısı ilə əhatə olunduğunu nəzərə çatdıran Daxili İşlər naziri dövlət başçısının bu ali diqqətinə və etimadına cavab olaraq hər bir əməkdaşın üzərinə düşən vəzifələrin öhdəsindən layiqincə gələcəyinə, xidmətdə və xidmətdənkənar vaxtlarda başqalarına nümunə olacaqlarına əminliyini bildirib.

# "Şıxlı" dövlət sərhədindən buraxılış məntəqəsində xidməti fəaliyyətin təşkilinin səviyyəsi yoxlanılıb





Yanvarın 21-də Dövlət Sərhəd Xidmətinin (DSX) rəisi general-polkovnik Elçin Quliyev və Dövlət Gömrük Komitəsinin sədri gömrük xidməti general-leytenantı Səfər Mehdiyev "Şıxlı" dövlət sərhədindən buraxılış məntəqəsində xidməti fəaliyyətin təşkilinin vəziyyətini yoxlayıblar.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dövlət sərhədindən buraxılış məntəqələrində şəxslərin və nəqliyyat vasitələrinin dövlət sərhədindən buraxılışı prosedurlarının təkmilləşdirilməsi barədə verdiyi tapşırıqların icra vəziyyəti və bu istiqamətdə görülmüş tədbirlərin effektivliyinin dəyərləndirilməsi məqsədilə dövlət sərhədindən keçən şəxslərlə söhbətlər edilib. Son dövrdə dövlət sərhədindən buraxılış məntəqələrinin xidməti fəaliyyətində nəzərəçarpan yeniliklərin səmərəliliyi barədə vətəndaşların fikirləri öyrənilib, təklif və müraciətləri dinlənilib.

Dövlət Sərhəd Xidmətinin və Dövlət Gömrük Komitəsinin rəhbərləri şəxslərin və nəqliyyat vasitələrinin sərhəd və gömrük rəsmiləşdirilməsində şəxsən iştirak edərək bu prosedurların vaxtının maksimal dərəcədə azaldılması və dövlət sərhədinin daha rahat keçilməsi üzrə mümkün tədbirlər barədə fikir mübadiləsi aparıb, vətəndaşların və nəqliyyat vasitələrinin dövlət sərhədindən daha sürətli keçidinin təmin edilməsi məqsədilə rejim zonasının daxilində infrastrukturun daha da təkmilləşdirilməsi ilə bağlı tapşırıqlar veriblər.

Səfər çərçivəsində general-polkovnik Elçin Quliyev və gömrük xidməti general-leytenantı Səfər Mehdiyevin rəhbərliyi ilə xidməti müşavirə keçirilib. Müşavirədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dövlət sərhədindən keçən şəxslərin hüquqlarının ən yüksək səviyyədə qorunması ilə bağlı verdiyi tapşırıq və göstərişlərin icrası üzrə hər iki qurumun üzərinə düşən vəzifələr, o cümlədən sərhəd və gömrük təhlükəsizliyinin gücləndirilməsi ilə yanaşı, dövlət sərhədindən keçən şəxslərin yoxlanılmasına mümkün qədər az vaxt sərf edilməsinin üsul və metodları haqqında geniş fikir mübadiləsi aparılıb.

"Şıxlı" dövlət sərhədindən buraxılış məntəqəsindəki mövcud vəziyyət, Dövlət Sərhəd Xidmətinin və Dövlət Gömrük Komitəsinin yerli bölmələrinin qarşılıqlı fəaliyyətinin tənzimlənməsi məsələləri müzakirə edilib və vəzifəli şəxslərin məruzələri dinlənilib.

Son zamanlar sərnişin və yükdaşımaların həcminin əhəmiyyətli dərəcədə artması nəzərə alınaraq, dövlət sərhədindən buraxılış məntəqələrində xidməti fəaliyyətin daha da optimallaşdırılması, o cümlədən dövlət sərhədindən keçən şəxslər, nəqliyyat vasitələri və yüklər üzərində sərhəd və gömrük nəzarətinin daha səmərəli təşkilinə dair təkliflər nəzərdən keçirilib.

Şəxslərin və nəqliyyat vasitələrinin dövlət sərhədindən hərəkətinin daha da asanlaşdırılması, rejim zonasının yaxınlığındakı infrastrukturun yaxşılaşdırılması məqsədilə "Şıxlı" dövlət sərhədindən buraxılış məntəqəsinin qarşısındakı ərazinin abadlaşdırılması və səliqəyə salınması məsələləri Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov ilə müzakirə olunub.

***"Azərbaycan"***

AzerGold
QAPALI SƏHMDAR CƏMİYYƏTİ

# "AzerGold" QSC 2019-cu ildə vergi ödənişlərini artırıb

2019-cu ildə "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin (QSC) hasilat göstəriciləri 55 min unsiya qızıl və 103 min unsiya gümüş olmuşdur. Bu göstərici 2018-ci illə müqayisədə 9.74 min unsiya (21.3%) qızıl və 25.74 min unsiya (33.2%) gümüş çoxdur. 2019-cu ildə "AzerGold" tərəfindən beynəlxalq bazarda 59.6 min unsiya qızıl və 110.9 min unsiya gümüş satılmışdır. Bu göstərici isə 2018-ci illə müqayisədə 14.6 min unsiya (33%) qızıl və 34.6 min unsiya (47%) gümüş çoxdur.

"AzerGold" QSC-nin hasilat və satış göstəricilərində olduğu kimi bütün növ vergi ödənişlərində də artım qeydə alınmışdır. Belə ki, 2019-cu ildə dövlət büdcəsinə ümumilikdə 13.487.739 AZN vəsait ödənilib. Ötən il bu məbləğ 12.644. 465 AZN təşkil etmişdir. 2019-cu ildə büdcə ödənişləri ötən illə müqayisədə 843.274 AZN, yəni 6.67 faiz artmışdır.

# MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA

## Mərkəzi Seçki Komissiyasının iclası keçirilib

Yanvarın 21-də Məzahir Pənahovun sədrliyi ilə Mərkəzi Seçki Komissiyasının (MSK) növbəti iclası keçirilib.

MSK Katibliyinin Media və ictimai əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə komissiyanın 2020-ci il 12 yanvar tarixli iclasının protokolu təsdiq edilib.

Sonra 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərlə əlaqədar MSK-ya daxil olmuş müraciətlərə baxılıb. Qanunla müəyyən olunmuş qaydada və müddətdə iclasa çıxarılan müraciətlər maraqlı subyektlərin də iştirakı ilə komissiya üzvləri tərəfindən geniş müzakirə edildikdən sonra müvafiq qərarlar qəbul olunub.

İclasda 33 saylı Xətai birinci və 35 saylı Xətai üçüncü seçki dairələri dairə seçki komissiyalarının tərkibində dəyişikliklər də edilib.

Beynəlxalq müşahidəçilərin və kütləvi informasiya vasitələrinin nümayəndələrinin qatıldığı iclasda, həmçinin qarşıdan gələn 9 fevral Milli Məclisə seçkilərlə bağlı cari məsələlərə baxılıb.

### QƏRAR № 13/90

## Mərkəzi Seçki Komissiyasının 12 yanvar 2020-ci il tarixli iclas protokolunun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə uyğun olaraq **qərara alır:**

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 12 yanvar 2020-ci il tarixli iclasının protokolu təsdiq edilsin.

**Sədr** **Məzahir Pənahov**
**Katib** **Arifə Muxtarova**
**Katib** **Mikayıl Rəhimov**

*21.01.2020*

### QƏRAR № 13/91

## 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 20 yanvar 2020-ci il tarixli 34 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 16 saylı Yasamal ikinci seçki dairəsi üzrə namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Əhmədova Gülər Mikayıl qızı 2020-ci il yanvarın 20-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək, 16 saylı Yasamal ikinci seçki dairəsi dairə seçki komissiyasının (dairə seçki komissiyası) 17 yanvar 2020-ci il tarixli 09/56 saylı qərarını mübahisələndirmiş, həmin qərarın ləğv edilməsini və namizədliyinin qeydə alınmasını xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələri və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"da nəzərdə tutulmuş müddətdə və qaydada verildiyindən Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən araşdırılaraq rəy verilmiş və komissiyanın iclasında baxılmışdır.

G.M.Əhmədova müraciətində bildirmişdir ki, 16 saylı Yasamal ikinci seçki dairəsi üzrə namizədliyi irəli sürülmüş, qeydə alınması üçün lazım olan 500 seçici imzasının toplandığı 10 imza vərəqəsini digər seçki sənədləri ilə bərabər dairə seçki komissiyasına təqdim etmiş, komissiyanın 17 yanvar 2020-ci il tarixli 09/56 saylı qərarı ilə namizədliyinin qeydə alınmasından imtina edilmişdir. O qeyd etmişdir ki, 161 imzanın etibarsız hesab edilməsinin əsasları qərarda izah olunmamış, imzaların ekspertizadan keçirilməsi üçün şübhələrin hansı səbəbdən yarandığı göstərilməmiş, imzalar yoxlanılarkən ona xəbər verilməmiş və yoxlamada iştirakı təmin edilməmiş, dairə seçki komissiyasının qeyd edilən qərarı isə ona vaxtında təqdim olunmamışdır.

Araşdırma zamanı namizəd G.M.Əhmədova ilə əlaqə saxlanılmış, araşdırma və iclasda iştirak etmək, həmçinin digər hüquqlarının olması ona izah edilmişdir.

Dairə seçki komissiyası G.M.Əhmədovanın namizədliyinin qeydə alınmasından imtina edilməsi barədə 17 yanvar 2020-ci il tarixli 09/56 saylı qərarını onunla əsaslandırmışdır ki, namizədliyinin qeydə alınması üçün seçki dairəsinin ərazisindən toplanmış 500 seçici imzası olan 10 ədəd imza vərəqəsini və onlara əlavə edilmiş digər seçki sənədlərini dairə seçki komissiyasına təqdim etmiş, komissiyanın nəzdində fəaliyyət göstərən işçi qrupu tərəfindən imza vərəqələri yoxlanarkən bəzi imzaların şübhə doğurduğu və bununla əlaqədar yoxlama aparılması zərurəti yarandığını nəzərə alaraq xətşünas ekspertlər yoxlama prosesinə cəlb edilmişlər. İmzaların düzgünlüyünün yoxlanılması məqsədilə dairə seçki komissiyasının sərəncamına ayrılmış Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzinin xətşünas ekspertlərinə təqdim edilmiş 500 seçici imzası yoxlanılmış və onlardan 161 imzanın 36 qrup olmaqla eyni şəxs tərəfindən icra olunduğu müəyyən edilmişdir. Təqdim edilmiş etibarlı (düzgün) seçici imzalarının lazım olan saydan az olması namizədin qeydə alınmasından imtina üçün əsas olmuşdur.

Araşdırma prosesində namizəd G.M.Əhmədova tərəfindən təqdim edilmiş imza vərəqələri, ona əlavə edilmiş sənədlər və materiallar dairə seçki komissiyasından tələb edilərək götürülmüş və müəyyən edilmişdir ki, 16 saylı Yasamal ikinci seçki dairəsi üzrə qeydə alınmış namizəd Həsənova Aygün Vidadi qızı 15 yanvar 2020-ci il tarixdə dairə seçki komissiyasına yazılı müraciət edərək G.M.Əhmədova tərəfindən namizədliyinin müdafiəsi üçün təqdim edilmiş imzaların düzgün olmadığını mübahisələndirmiş və bununla bağlı müvafiq tədbirlərin görülməsini xahiş etmişdir. Həmin müraciətin araşdırılması nəticəsində namizəd G.M.Əhmədovanın namizədliyinin müdafiəsi üçün təqdim edilmiş imza vərəqələrində olan bəzi imzaların düzgünlüyü şübhə doğurduğundan onların yoxlanılması üçün xətşünas ekspertlərin ayrılması məqsədi ilə dairə seçki komissiyası 15 yanvar 2020-ci il tarixdə Mərkəzi Seçki Komissiyasına müraciət etmişdir.

Namizəd G.M.Əhmədova tərəfindən mübahisələndirilən 161 seçici imzası təkrar olaraq yoxlanılması üçün Mərkəzi Seçki Komissiyası nəzdində fəaliyyət göstərən işçi qrupuna təqdim edilmişdir. Mübahisələndirilən və qeydiyyatdan imtina üçün əsas olmuş 161 seçici imzasının 36 qrup olmaqla eyni şəxs tərəfindən icra olunması nəticəsində 125 seçici imzasının qeyri-düzgün olması tərtib edilmiş 20 yanvar 2020-ci il tarixli protokol və ekspert rəyi ilə bir daha təsdiq olunmuşdur.

Seçki Məcəlləsinin 59.2-ci maddəsinə görə işçi qrupunun tərkibinə müvafiq orqanların mütəxəssisləri sırasından cəlb edilən ekspertlərin rəyləri imza vərəqələrində olan məlumatların düzgün olub-olmamasını təsdiq edən əsas kimi qəbul edilir.

Seçki Məcəlləsinin 147.1-ci maddəsinə əsasən, namizədin müdafiəsi üçün onun irəli sürüldüyü seçki dairəsinin ərazisində seçicilərin azı 450 imzası toplanılmalıdır.

Seçki Məcəlləsinin 60.2.4-cü maddəsinin tələbinə görə namizədin müdafiəsi üçün təqdim edilmiş etibarlı (düzgün) seçici imzalarının lazımi saydan az olması namizədin qeydə alınmasından imtina üçün əsasdır.

Göstərilənlərlə müəyyən edilir ki, etibarlı (düzgün) seçici imzalarının sayı G.M.Əhmədovanın namizədliyinin qeydə alınması üçün kifayət etmədiyindən dairə seçki komissiyasının onun namizədliyinin qeydə alınmasından imtina edilməsi barədə gəldiyi hüquqi nəticə Seçki Məcəlləsinin tələblərinə uyğun olmuşdur.

Namizəd G.M.Əhmədovanın Seçki Məcəlləsinin 59.3-cü maddəsinin tələblərinə zidd olaraq imza vərəqələri yoxlanılarkən iştirakının təmin edilməməsi barədə iddiası araşdırma zamanı öz təsdiqini tapmamışdır. Belə ki, dairə seçki komissiyasının nəzdində fəaliyyət göstərən işçi qrupunun üzvləri tərəfindən tərtib edilmiş aktdan müəyyən edilir ki, namizəd imzaların yoxlanılmasında iştirak etməyə dəvət edilsə də, o, bu prosesə gəlməmişdir.

Namizəd G.M.Əhmədovanın dairə seçki komissiyası tərəfindən namizədliyinin qeydə alınıb-alınmaması barədə məlumatın ona verilməməsi ilə bağlı iddiaları da araşdırmada öz təsdiqini tapmamışdır. Dairə seçki komissiyasının qəbul etdiyi qərar barəsində namizədə məlumat verilmiş, həmin qərarı götürməsi xahiş edilmiş, eyni zamanda qərarın surəti 18 yanvar 2020-ci ildə poçt vasitəsilə (göndərmə müvafiq poçt sənədi ilə təsdiq edilir) ona göndərilmişdir.

Göstərilənlərə əsasən namizəd G.M.Əhmədovanın müraciəti əsassız olduğundan təmin edilməməli, namizədliyin qeydə alınmasından imtinaya dair dairə seçki komissiyasının 17 yanvar 2020-ci il tarixli 09/56 saylı qərarı dəyişdirilmədən saxlanılmalıdır.

Yuxarıda göstərilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 57-ci. 59-cu, 60-cı, 112-ci, 112-1-ci, 147-ci və 148-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə 16 saylı Yasamal ikinci seçki dairəsi üzrə namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Əhmədova Gülər Mikayıl qızının 20 yanvar 2020-ci il tarixli 34 saylı müraciəti əsassız olduğundan təmin edilməsin, dairə seçki komissiyasının 17 yanvar 2020-ci il tarixli 09/56 saylı qərarı dəyişdirilmədən saxlanılsın.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** **Məzahir Pənahov**
**Katib** **Arifə Muxtarova**
**Katib** **Mikayıl Rəhimov**

*21.01.2020*

### QƏRAR № 13/92

## 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 19 yanvar 2020-ci il tarixli 33 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 29 saylı Səbail seçki dairəsi üzrə namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Qəhrəman Elgiz Camal oğlu 2020-ci il yanvarın 19-da Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək namizəd kimi qeydə alınmasından imtinaya dair 29 saylı Səbail seçki dairəsi dairə seçki komissiyasının (dairə seçki komissiyası) 16 yanvar 2020-ci il tarixli 10/44 saylı qərarını mübahisələndirmiş, həmin qərarın ləğv edilməsini və namizədliyinin qeydə alınmasını xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən araşdırılmış, rəy verilmiş və komissiyanın iclasında baxılmışdır.

Namizəd E.C.Qəhrəman müraciətində bildirmişdir ki, 2020-ci il fevralın 9-na təyin edilmiş Milli Məclisə seçkilərdə 29 saylı Səbail seçki dairəsi üzrə namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş, həmin seçki dairəsinin ərazisində seçicilərin imzası toplanaraq imza vərəqələri və ona əlavə olunmuş digər seçki sənədləri dairə seçki komissiyasına təqdim edilmiş, lakin mülkiyyət hüququ əsasında həyətyanı torpaq sahəsinin ona məxsus olmasını bilmədiyinə görə bu barədə dairə seçki komissiyasına məlumat verməmiş və nəticədə komissiya onu namizəd kimi qeydə almaqdan imtina etmişdir.

Araşdırma zamanı namizədlə əlaqə saxlanılmış, araşdırma və iclasda iştirak etmək, həmçinin digər hüquqlarının olması izah edilmiş, onun komissiyanın iclasında iştirakı təmin olunmuşdur.

Dairə seçki komissiyası namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş E.C.Qəhrəmanın namizəd kimi qeydə alınmasından imtina edilməsi barədə qərarını mülkiyyət hüququ əsasında namizədə məxsus paylı mülkiyyətdə olan daşınmaz əmlakın göstərilməməsi ilə əsaslandırmışdır.

Araşdırma ilə əlaqədar namizəd E.C.Qəhrəman tərəfindən namizədliyin qeydə alınması üçün təqdim edilmiş sənədlər dairə seçki komissiyasından tələb edilərək yoxlanılması üçün Mərkəzi Seçki Komissiyasının nəzdində fəaliyyət göstərən işçi qrupuna verilmişdir. İşçi qrupunun 20 yanvar 2020-ci il tarixli rəyində göstərilir ki, namizəd E.C.Qəhrəmanın əmlakı barədə təqdim etdiyi məlumatda göstərilməyən, lakin ümumi birgə mülkiyyət hüququ əsasında ona məxsus dövlət qeydiyyatına alınmış həyətyanı torpaq sahəsi aşkar olunmuşdur.

Namizəd E.C.Qəhrəmanın daşınmaz əmlakı barədə dairə seçki komissiyasına düzgün məlumat verməməsi Seçki Məcəlləsinin 60.2.3-cü maddəsinə əsasən onun namizədliyinin qeydə alınmasından imtina üçün hüquqi əsas yaratmışdır.

Göstərilənlərə əsasən şikayət təmin edilməməli, E.C.Qəhrəmanın namizədliyinin qeydə alınmasından imtinaya dair dairə seçki komissiyasının 16 yanvar 2020-ci il tarixli 10/44 saylı qərarı dəyişdirilmədən saxlanılmalıdır.

Yuxarıda göstərilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 58-ci, 59-cu, 60-cı, 112-ci, 112-1-ci və 148-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-na təyin edilmiş Milli Məclisə seçkilərdə 29 saylı Səbail seçki dairəsi üzrə namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Qəhrəman Elgiz Camal oğlunun 19 yanvar 2020-ci il tarixli 33 saylı müraciəti əsassız olduğundan təmin edilməsin, dairə seçki komissiyasının 16 yanvar 2020-ci il tarixli 10/44 saylı qərarı dəyişdirilmədən saxlanılsın.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** **Məzahir Pənahov**
**Katib** **Arifə Muxtarova**
**Katib** **Mikayıl Rəhimov**

*21.01.2020*

### QƏRAR № 13/93

## Bəzi dairə seçki komissiyalarının tərkibində dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 22.1-ci, 22.3.1-ci, 28.2-ci, 28.4-cü və 30-cu maddələrinə uyğun olaraq **qərara alır:**

1. Eldar Vladimiroviç Qəmbərov 33 saylı Xətai birinci, Günay İlqar qızı Musayeva 35 saylı Xətai üçüncü seçki dairəsi dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvü vəzifəsindən vaxtından əvvəl azad edilsinlər.
2. Eldar Vladimiroviç Qəmbərov 35 saylı Xətai üçüncü seçki dairəsi dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvü təyin edilsin.

**Sədr** **Məzahir Pənahov**
**Katib** **Arifə Muxtarova**
**Katib** **Mikayıl Rəhimov**

*21.01.2020*

# Ötən ilin yekunları statistikada

## Əsas kapitala 17,1 milyard manatdan çox vəsait yönəldilmişdir

Dövlət Statistika Komitəsinin məlumatına görə, keçən il ölkənin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 17 milyard 184,3 milyon manat vəsait yönəldilmişdir.



Sərf edilmiş vəsaitin 65,4 faizini tikinti-quraşdırma işlərinin dəyəri təşkil etmişdir. Ümumi sərmayənin 66,3 faizi məhsul istehsalı və 25,8 faizi xidmət sahələrinə, 7,9 faizi isə yaşayış evlərinin tikintisinə sərf olunmuşdur. Daxili mənbələrdən əsas kapitala yönəldilmiş vəsait ümumi sərmayənin 69,8 faizini təşkil etmişdir.

İl ərzində əsas kapitala yönəldilən sərmayənin ümumi dəyərində müəssisə və təşkilatların vəsaitləri 52, büdcə vəsaitləri 28,3, bank kreditləri 12, əhalinin şəxsi vəsaitləri 5,7, büdcədənkənar dövlət fondlarının vəsaitləri 1,2, digər vəsaitlər 0,8 faiz olmuşdur.

2019-cu ildə paytaxtda Bakı Nəqliyyat Agentliyinin "Koroğlu" Nəqliyyat Mübadilə Mərkəzi, Şpris istehsalı zavodu, DOST Agentliyinin və DOST mərkəzlərinin inzibati binaları, Əmlak Xidmətləri Məkanı, Pirallahı Rayon İcra Hakimiyyətinin inzibati binası, Pirallahı Rayon Gənclər Mərkəzi, Mərdəkan-Qala avtomobil yolu, Pirşağı qəsəbəsində avtomobil tuneli, Sumqayıt şəhərində "SOCAR karbamid" zavodu, Polietilen zavodu, Muğam Mərkəzi, Nizami kinoteatrının yeni binası, Ağdaş rayonunda Biyan Sənaye Parkı, Ağdaş Rayon Telekommunikasiya Qovşağında "Şəbəkə" Xidmət Mərkəzi, Qolqəti-Dəhnəxəlil-Qoşaqovaq-Ərəbocağı, Nehrəxəlil-Kotanarx-Cardam-Tofiqi-Şəmsabad və Qəsil-Şordəhnə-Qarağan Şıxlar-Kükəl-Ərəb-İkinci Aral avtomobil yolları, Beyləqan rayonunda Olimpiya İdman Kompleksi, Tarix-Diyarşünaslıq Muzeyi, Kəbirli-Eyvazalılar-Birinci Aşıqlı-Əlinəzərli və Mingəçevir-Stansiya Mingəçevir-Bəhrəmtəpə-Beyləqan avtomobil yolları, Qəbələ və Qobustan rayonlarında "Azərxalça" ASC-nin filialları, Qobustan-Poladlı avtomobil yolu, Şamaxı rayonunda "Asan Həyat" kompleksi, bunlardan əlavə, Bakı şəhərində 1920 şagirdlik ümumi təhsil müəssisəsi, 280 yerlik məktəbəqədər təhsil müəssisəsi, 200 çarpayılıq xəstəxana, Naxçıvan Muxtar Respublikasında 2220 şagirdlik 7 ümumi təhsil müəssisəsi, 200 yerlik məktəbəqədər təhsil müəssisəsi və 4 ambulatoriya-poliklinika müəssisəsi, Lənkəran şəhərində 432, Şəki şəhərində 624, Ağcabədi rayonunda 696, Lerik rayonunda 360, Cəlilabad rayonunda 180, İmişli rayonunda 756, İsmayıllı rayonunda 400, Quba rayonunda 180 şagird yerlik ümumi təhsil müəssisəsi, Goranboy, Qazax, Qobustan və Şəmkir rayonlarında 585 çarpayılıq xəstəxana, Abşeron rayonunda 140 yerlik məktəbəqədər təhsil müəssisəsi, Beyləqan rayonunda 150 şagirdlik ümumi təhsil müəssisəsi və 50 yerlik məktəbəqədər təhsil müəssisəsi, Oğuz rayonunda 100 yerlik məktəbəqədər təhsil müəssisəsi və s. mühüm əhəmiyyətli obyektlər istifadəyə verilmişdir.

## Sənayenin qeyri-neft-qaz sektoru üzrə məhsul istehsalında 14,3 faiz artım qeydə alınmışdır



Ötən il ölkə üzrə 46,7 milyard manatlıq (2018-ci illə müqayisədə 1,8 faiz çox) sənaye məhsulları istehsal edilmişdir. Sənayenin qeyri-neft-qaz sektorunda məhsul istehsalı 14,3 faiz artmışdır.

Dövlət Statistika Komitəsinin açıqladığı məlumatda bildirilir ki, sənaye məhsullarının 69,9 faizi mədənçıxarma, 25,2 faizi emal, 4,2 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 0,7 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal olunmuşdur.

Mədənçıxarma sektorunda neft hasilatı 3,3 faiz azalmış, əmtəəlik qaz hasilatı 27,7 faiz artmışdır.

Emal sektorunda isə bir çox sahələr üzrə yüksək artım qeydə alınmışdır. Belə ki, il ərzində ağac emalı və ağacdan məmulatların istehsalı 82,9, tütün məmulatlarının istehsalı 80,7, hazır metal məmulatlarının istehsalı 80, kompüter, elektron və optik məhsulların istehsalı 51,8, poliqrafiya məhsullarının istehsalı 42,2, içkilərin istehsalı 41,4, toxuculuq sənayesi məhsullarının istehsalı 33,2, mebel istehsalı 29,5, maşın və avadanlıqların quraşdırılması və təmiri işləri 27,5, kimya sənayesi məhsullarının istehsalı 25,6, kağız və karton istehsalı 25,5, geyim istehsalı 22,6, rezin və plastik kütlə məmulatlarının istehsalı 22, əczaçılıq məhsullarının istehsalı 20,6, qida məhsullarının istehsalı 10,8, tikinti materiallarının istehsalı 5, elektrik avadanlıqlarının istehsalı 1,1, maşın və avadanlıqların istehsalı 1 faiz artmışdır. Artım həmçinin elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında müşahidə edilmişdir - müvafiq olaraq 3,5 və 6 faiz.

## Pərakəndə ticarət dövriyyəsinin həcmi 39 milyard manatı üstələmişdir

Dövlət Statistika Komitəsinin yaydığı məlumata əsasən, 2019-cu ildə ölkə üzrə pərakəndə ticarət şəbəkəsində satılmış məhsulların dəyəri əvvəlki ilin səviyyəsini müqayisəli qiymətlərlə 3,6 faiz üstələyərək 39,4 milyard manata çatmışdır.



Ticarət dövriyyəsinin 20 milyard manatını ərzaq məhsulları, içkilər və tütün məmulatları, 19,4 milyard manatını qeyri-ərzaq məhsulları təşkil etmiş və satılmış məhsulların dəyəri 2018-ci ilə nisbətən real ifadədə müvafiq olaraq 3,2 və 4 faiz artmışdır.

Hesabat ilində məhsul bazarı bu göstəricilərlə xarakterizə olunmuşdur: son istehlak məqsədilə alınan mallara xərclənən vəsaitin 45,8 faizi ərzaq məhsullarının, 4,9 faizi içki və tütün məmulatlarının, 17,5 faizi toxuculuq məhsulları, geyim və ayaqqabıların, 6 faizi elektrik malları və mebellərin, 5,9 faizi avtomobil yanacağının, 1,3 faizi əczaçılıq və tibbi malların, 0,9 faizi kompüterlər, telekommunikasiya avadanlıqları və çap məhsullarının, 17,7 faizi digər qeyri-ərzaq məhsullarının alınmasına sərf olunmuşdur.

Keçən il istehlak məhsullarının dəyər ifadəsində 21 faizi ticarət müəssisələri, 52 faizi fərdi sahibkarlar tərəfindən, 27 faizi isə bazar və yarmarkalarda satılmışdır. 2018-ci illə müqayisədə pərakəndə ticarət dövriyyəsi real ifadədə müəssisələr üzrə 29,5, fərdi sahibkarlar üzrə 1,8 faiz artmış, bazar və yarmarkalarda isə 7,6 faiz azalmışdır.

Hesabat ilində əhalinin bir nəfərinə düşən orta aylıq pərakəndə ticarət dövriyyəsi 331,4 manat (2018-ci ilin müvafiq göstəricisindən nominal ifadədə 16,6 manat çox) olmuşdur. Ticarət şəbəkəsində bir ölkə sakini orta hesabla hər ay 168 manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları, 163,4 manatlıq qeyri-ərzaq məhsulları almışdır.

***"Azərbaycan"***

# Muzey əməkdaşlarının “Könüllülər ili”nə ilk töhfəsi





AMEA-nın Milli Azərbaycan Tarixi Muzeyi öz elmi-kütləvi fəaliyyəti ilə yanaşı, xalqımızın mənəvi dəyərlərindən sayılan xeyriyyəçilik ənənələrinə sadiqlik nümunəsi də göstərir. Muzey əməkdaşları 1 saylı Sağlamlıq İmkanları Məhdud Uşaqlar üçün Sosial Xidmət Müəssisəsində ilin ilk xeyriyyə tədbirini təşkil ediblər.

Muzeyin Elmi-kütləvi iş və təhsil şöbəsinin müdiri Fəridə Şəmsi bildirib ki, yaradılmasının 100 illiyinə hazırlaşan Milli Azərbaycan Tarixi Muzeyinin bu təşəbbüsü Azərbaycan Prezidenti İlham Əliyevin 2020-ci ili “Könüllülər ili” elan edən müvafiq sərəncamı ilə əlaqədardır. Tədbir uşaqlara daha çox diqqət və qayğı göstərilməsinin vacibliyinin təsdiqidir: “Sağlamlıq imkanları məhdud olan hər kəs yaşından asılı olmayaraq cəmiyyət tərəfindən daha çox diqqət umur. Bu da təbiidir. Xüsusən belə kateqoriyalı uşaqlar həssas olurlar, kiçik bir qayğı onların cəmiyyətə inteqrasiyasında mühüm əhəmiyyət kəsb edir. Ona görə də kollektivimiz həmişə bu istiqamətdə müəyyən tədbirlər təşkil edir. Düşünürük ki, hər sınıq könülü oxşamaq, onu ovundurmaq xeyirxahlıqla yanaşı, həm də savabdır” .

Muzey əməkdaşlarının ianəsi ilə toplanan vəsaitlə sosial xidmət müəssisəsinin 176 uşağına isti geyim dəsti alınıb və birgünlük yemək təşkil edilib. Sosial Xidmət Müəssisəsinin direktoru Sevinc Məlikova tədbirdə onu da vurğulayıb ki, bu aksiya “2020-ci il - “Könüllülər ili”nin ilk xeyriyyə tədbiridir. O, həmçinin rəhbərlik etdiyi müəssisənin müəllim və uşaqlarının adından AMEA-nın Milli Azərbaycan Tarixi Muzeyinin rəhbərliyinə və kollektivinə təşəkkürünü bildirib.

Qədim Musiqi Alətləri Ansamblının rəhbəri, Xalq artisti Munis Şərifov və çalğıçı Pərviz Hacıbəyovun xüsusi təqdim etdikləri musiqili əyləncə proqramı isə iştirakçıların zövqünü oxşayıb və alqışlarla qarşılanıb.

***M.NƏRİMANOĞLU, “Azərbaycan”***

# “Azərişıq” ASC şəffaflığı tam şəkildə təmin edir



“Azərişıq” ASC 2015-ci ildə yaradılarkən prezidentin qarşıya qoyduğu vəzifələrin yerinə yetirilməsi istiqamətində intensiv işləyərək istehlakçıların elektrik enerjisi ilə təchizatı və abonentlərə xidmətlərin göstərilməsi üzrə vəziyyəti radikal şəkildə dəyişməyə nail olub.

ASC-nin mətbuat xidmətinin rəhbəri Tanrıverdi Mustafayevin bildirdiyinə görə, ölkənin vahid elektrik təchizatı operator-şirkətinin yaradılmasından bu yana keçən 5 ilə yaxın müddət ərzində elektrik şəbəkəsi infrastrukturunun yenidən qurulması üçün ən ucqar dağlıq bölgələri də əhatə edən genişmiqyaslı proqram icra olunmaqdadır.

“Biz bu yenidənqurma proqramının gedişi, hansı işlərin görüldüyü və abonentlərin elektrik enerjisi ilə keyfiyyətli, dayanıqlı şəkildə təmin olunmasında hansı nəticələrin əldə edildiyi barədə vaxtaşırı olaraq ictimaiyyəti məlumatlandırırıq. Hazırda tam əminliklə deyə bilərik ki, Azərbaycan elektrik enerjisi infrastrukturunun vəziyyətinə görə bir çox qonşu ölkələrdən, o cümlədən əksər MDB respublikalarından öndədir. “Azərişıq” ASC prezidentin qarşıya qoyduğu vəzifələrə uyğun olaraq paytaxtdan başlamış ən ucqar bölgələrə qədər infrastrukturu müasir avadanlıqlarla, qurğularla yeniləməkdədir. Nəticədə Bakı da daxil olmaqla iri şəhərlərimizdə, bölgələrimizdə biznesin inkişafı üçün əsas şərtlərdən biri olan elektrik enerjisinə əlçatanlıq səviyyəsi yüksəlib. Prezident İlham Əliyevin də bu günlərdə bəyan etdiyi kimi, Davos Forumunun hesabatına əsasən, Azərbaycan elektrik enerjisinin əlçatanlığı üzrə dünyada ikinci ölkəyə çevrilib. Digər mühüm nailiyyət isə şəffaflığın artırılmasıdır. Deyə bilərəm ki, “Azərişıq” ASC hazırda ölkənin ən şəffaf işləyən strukturlarından biridir” deyəT.Mustafayev bildirib.

“Azərişıq” ASC-nin mətbuat xidmətinin rəhbəri vurğulayıb ki, müştəri məmnunluğunu artırmaq, məmur-vətəndaş təmaslarını minimuma endirmək, şəffaflığı təmin etmək məqsədilə ilkin olaraq şirkət 4 xidmət üzrə “ASAN xidmət” və “ASAN kommunal” mərkəzlərində fəaliyyətə başlayıb.

Hazırda isə “Azərişıq” ASC bu mərkəzlərdə 16 xidmət üzrə abonentlərə xidmət göstərir. 2015-ci ildən bu günə qədər 16 xidmət üzrə “Azərişıq” ASC-yə “ASAN xidmət”, “ASAN kommunal”, KOB evləri və elektron qaydada yarım milyona yaxın müraciət daxil olub.

“16 xidmət arasında xüsusi əhəmiyyət daşıyan 150 kilovata qədər sahibkarlıq obyektlərinin elektrik şəbəkəsinə qoşulması üçün müraciət edən 6,6 min sahibkarın və 120 min vətəndaşın evinə, bağına və ya həyətinə işıq çəkilib. Göstərilən müddət ərzində obyektin elektrik şəbəkəsinə qoşulması üçün müddət 74 gündən 20 günə, prosedurlar isə 7-dən 2-yə endirilib. İşin yüksək səviyyədə təşkili, operativliyi və keyfiyyəti təmin etmək üçün “Azərişıq” ASC-də ayrıca “ASAN xidmət”lə iş departamenti yaradılıb. “Azərişıq” ASC mütəxəssislərinin yaratdığı Elektron Müraciətlərin İdarəolunması Sistemi vasitəsilə abonentlərin online qaydada elektrik təchizatı şəbəkəsinə qoşulması təmin edilib” deyə T.Mustafayev qeyd edib.

O, habelə xatırladıb ki, səhmdar cəmiyyətin Şəmkir, Mingəçecir, İmişli və Qəbələdə Avtomatik İdarəetmə mərkəzləri yaradılıb və mərkəzlərdə quraşdırılan server vasitəsilə Elektron Müraciətlərin İdarəolunması Sistemi “ASAN xidmət”in işinə inteqrasiya edilib.

***“Azərbaycan”***

# S.Sarkisyan həbsin bir addımlığındadır

## Ermənistanda hakimiyyətə qarşı etirazlar daha sərt xarakter alır

Ermənistanın ictimai, sosial-siyasi vəziyyətinin dərin böhrana doğru getməsi hər keçən gün özünü daha qabarıq formada büruzə verir. Görünən odur ki, Paşinyan hakimiyyəti ilə sabiq iqtidar təmsilçiləri arasında kəskinləşən qarşıdurma ölkədə yeni xaosun formalaşmasına zəmin yaradır.

Belə vəziyyətdə isə baş nazir rəqiblərini həbs etdirməklə aradan götürməyə çalışır. Robert Koçaryanın həbsindən sonra Ermənistanın digər sabiq başçısı Serj Sarkisyan haqqında cinayət işinin təhqiqatı yekunlaşıb. Xüsusi istintaq xidmətinin məlumatına görə, cinayət işinə dair materiallar prokurorluğa göndərilib.

Serj Sarkisyan bir milyon dollardan çox dövlət vəsaitinin oğurlanmasının təşkilində ittiham olunur. Onunla birlikdə sabiq kənd təsərrüfatı nazirinin müavini Samvel Qalstyan, nazirliyin bitkiçilik idarəsinin rəisi Gevorq Arutyunyan və “Fleş” şirkətinin sahibi Barseq Beqlaryana da ittiham irəli sürülüb.

Bildirilir ki, sui-istifadə kəndlilərə dizel yanacağının münasib qiymətlərlə satılması üzrə hökumət proqramı çərçivəsində baş verib. Cinayət işinin materiallarında göstərilir ki, Serj Sarkisyan dövlət büdcəsindən 2013-cü il yanvarın 25-dən fevralın 7-dək 489 milyon dram (1 milyon dollardan çox) pulu mənimsəmədə və israf etməkdə ittiham olunur. Sabiq prezidentin ölkədən çıxması ilə bağlı qadağa qərarı qəbul edilib. Serj Sarkisyana qarşı ilkin istintaq araşdırmaları çərçivəsində Ermənistan Cinayət Məcəlləsinin 38-179-cu maddələrinə (mənimsəmə və israfçılıq) əsasən ittiham irəli sürülüb.

Belə ki, 24 yanvar 2013-cü ildə hökumət torpaq istifadəçilərinə dövlət dəstəyi proqramını təsdiqləyib. Proqrama əsasən təxminən 17 milyon litr dizel yanacağı satılıb. Məbləğ regional idarəetmə və Kənd Təsərrüfatı Nazirliyi sisteminin müraciətləri əsasında ayrılıb. “Maksxur” və “Fleş” şirkətləri də daxil olmaqla dizel yanacağının tədarükünə görə keçirilən tenderdə iştirak üçün bir neçə şirkət ərizə təqdim edib. “Maksxur” daha aşağı qiymət təklif edib. Nəticədə bu şirkətin müraciəti təsdiqlənmək üçün Kənd Təsərrüfatı Nazirliyi tərəfindən hökumətə təqdim edilib. Serj Sarkisyan “Maksxur”un daha sərfəli təklifinə məhəl qoymayıb və rəsmi mövqeyindən istifadə edərək tabeliyindəki şəxslərə “Fleş” şirkətinin xeyrinə seçim etməyi tapşırıb. Nəticədə hökumətin 7 fevral 2013-cü il tarixli qərarı ilə 17.041.300 litr dizel yanacağı almaq üçün hökumətin ehtiyat fondundan Kənd Təsərrüfatı Nazirliyinə 1,7 milyard dramdan çox vəsait ayrılıb. Bu pul “Fleş” şirkətinin hesabına köçürülüb. Sonradan hökumətin qərarı ilə tələb olunan yanacağın miqdarı 17.343.530 litrə qədər artıb, məbləğ isə 1.821.070.650 drama çatıb. Yekunda 14 fevral - 28 iyun arasında 12 ton dizel yanacağı satılıb, bunun üçün 1.269.275.070 dram subsidiya ayrılıb. Faktiki olaraq dövlət büdcəsindən 423.091.690 dram artıq pul ödənilib. Müstəntiqlər hesab edirlər ki, keçmiş prezident sövdələşmədən maksimum şəxsi mənfəət götürmək niyyəti güdüb.

Belə bir vaxtda diqqət çəkən başqa məqamlardan biri də odur ki, siyasi proseslərin çözümündə kriminal əməllərdən istifadə cəhdləri də artır. Nikol Paşinyan Ermənistanda baş nazir postuna sahib olduqdan sonra - son il yarım ərzində Ermənistanda bir neçə sabiq məmur müxtəlif şəraitdə ölüb, ya da öldürülüb. 2018-ci ilin iyul ayında Yerevanda “Qazprom-Ermənistan” şirkətinə məxsus “Transgaz” şirkətinin direktoru Nikolay Qabrielyanın meyiti aşkar edilib. Həmin ilin oktyabrında paytaxtda Milli Məclisin keçmiş deputatı, “Yuveçi Karo” ləqəbi ilə tanınan Karo Karapetyan qətlə yetirilib. Ötən ilin sentyabr ayında Ermənistanın Kotayk rayonunun Bjni kəndində respublikanın keçmiş polis rəisi Hayk Harutyunyanın cəsədi tapılıb. 2019-cu ilin sonlarında Yerevanın keçmiş polis rəisi Aşot Karapetyan öldürülüb.

Bu günlərdə isə Dövlət Təhlükəsizlik Xidmətinin (DTX) keçmiş direktoru Georgi Kutoyanın Yerevandakı mənzillərdən birində başında güllə yarası ilə meyiti tapılıb. Cəsədin yaxınlığında tapança, çox sayda patron olub. Qonşuların heç biri atəş səsləri eşitməyib. Kutoyan 2016-cı ilin fevralından 2018-ci ilin may ayına qədər DTX-yə rəhbərlik edib. Georgi Kutoyanın ölümü ilə bağlı “İntihar həddinə çatdırma” maddəsi ilə cinayət işi açılıb.

Digər tərəfdən müxtəlif tələblərlə vətəndaşların bitməyən etiraz aksiyaları da işğalçı ölkədə vəziyyəti ağırlaşdırıb. Hakimiyyətə gəldiyi vaxtdan bugünə kimi itaətsizlik aksiyaları və kütləvi mitinqlər Ermənistanın baş naziri Nikol Paşinyanı çox çətin vəziyyətdə qoyub. Bu günlərdə Ermənistanın müxtəlif bölgələrindən olan ət satıcıları və fermerlər hökumət binası qarşısında növbəti aksiya keçiriblər. Etirazçılar sallaqxanalarla bağlı yeni tələblər irəli sürüblər. Aksiya iştirakçıları Tiqran Mets prospektini bağlayıblar. Fermerlərdən birinin sözlərinə görə, bir sakinin iki donuzu ən yaxın sallaqxanaya aparması üçün 90 kilometr məsafə qət etməsi lazımdır: “Bu isə ağlabatan deyil. Sanitariya standartlarından danışırlar. Gedin bu kəsmə məntəqələrindəki təmizliyə baxın, sonra gəlib həyətimizdəki sallaqxanalara baxın”.

Etirazların qarşısını almaq üçün hökumət evinin qarşısına çoxsaylı polis qüvvələri cəlb edilib. Bütün bunlar Ermənistanı qarşıdakı dövrdə daha gərgin günlər gözlədiyindən xəbər verir.

***Elçin CƏFƏROV, “Azərbaycan”***

## “Azərişıq”ASC 2020-ci ildə tələb olunan 1 fazalı SMS tipli sayğacların satın alınması məqsədilə

### *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir:

**LOT-1.** 1 fazalı SMS tipli sayğacların satın alınması - 400 manat

**“Azərişıq” ASC**
**Hesab №: AZ83AIIB33020029441802068118**
**VÖEN: 9900069391**
**Benefisiarın Bankı: Kapital Bankın Gənclik filialı**
**Kod: 200189**
**VÖEN: 9900003611**
**Müxbir hesab №: AZ37NABZ01350100000000001944**
**SWIFT Code: AIIBAZ2X**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə göstərilən məbləğdə iştirak haqqını qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Ə.Qayıbov küçəsi, 8 ünvanında yerləşən “Azərişıq” ASC-nin inzibati binasından ala bilərlər.

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Əlaqələndirici şəxs - Zaur Abdullayev (telefon: 440-39-93, daxili: 23-32)

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (1 ədəd əsli və 1 ədəd surəti) tərtib olunmalıdır (xarici dildə olan məlumatlar Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçiriləcəkdir (https://etender.gov.az/).

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **25 fevral 2020-ci il saat 16:00-a** qədər, ixtisas uyğunluğu prosedurunu keçmiş iddiaçılar isə tender təklifi və bank təminatını möhürlənmiş ikiqat zərfdə **04 mart 2020-ci il saat 16:00-a** qədər Bakı şəhəri, Ə.Qayıbov küçəsi, 8 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **05 mart 2020-ci il saat 16:00-da** Ələsgər Qayıbov küç. 8 ünvanında “Azərişıq” ASC-nin inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## BİLDİRİŞ

“Azərbaycan İnvestisiya Şirkəti” ASC AZ1025, Bakı şəhəri, Xətai rayonu, Xocalı prospekti 37, “Demirçi Tower” 20-ci mərtəbə ünvanında yerləşən ofisinə fiber optik xətt üzərindən internet xidmətinin kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir.

Maraqlanan şirkətlər 012 488-80-10 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər. Kotirovka sorğusu prosedurunda iştirak etmək üçün sənədlər 24.01.2020-ci il saat 17:00-dək qəbul olunur.

***Tender komissiyası***

## BİLDİRİŞ

17 yanvar 2020-ci il Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Sanitariya-epidemioloji işlərinin satın alınması üçün keçirilən kotirovka sorğusunda “Bakı Şəhər Dezinfeksiya Stansiyasının Səbail Rayonlararası Bölməsi” MMC qalib olmuş və satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***

DÜZƏLİŞ

Azərbaycan Respublikası Baş Prokurorluğunun “Azərbaycan” qəzetinin 15.01.2020-ci il tarixli sayında dərc edilmiş tender elanında təqdim edilən sənədlər bölümünün 4-cü xətti “tender təklifinin dəyərinin 1 faizi həcmində bank təminatı”, təklif zərflərinin açılma tarixi “10 mart 2020-ci il saat 11:00” kimi oxunmalıdır.

## ALLAH RƏHMƏT ELƏSİN!

“Azərbaycan” qəzeti redaksiyasının kollektivi iş yoldaşları

**BƏŞİR ŞƏRİFOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin rəhbərliyi, hakimləri və Aparat əməkdaşları Konstitusiya Məhkəməsinin hakimi Mahir Muradova atası, Ziyalılar cəmiyyətinin üzvü, şərqşünas alim

**CÜMŞÜD MURADOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi Mahir Muradova atası

**CÜMŞÜD MURADOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Ədliyyə nazirinin müavini Ceyhun Həsənov və Penitensiar xidmətin kollektivi xidmətin Kadrlar idarəsinin rəisi Əflatun Məmmədova anası

**ŞƏFİQƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin kollektivi Penitensiar xidmətin idarə rəisi Əflatun Məmmədova anası

**ŞƏFİQƏ MƏMMƏDOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Prokurorluğunun kollektivi Konstitusiya Məhkəməsinin hakimi Mahir Muradova atası

**CÜMŞÜD MURADOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

“AzerGold” QSC-nin rəhbərliyi və kollektivi “El Holdinq”in prezidenti Elçin Muradova atası

**CÜMŞÜD MURADOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Şirvan Apelyasiya Məhkəməsinin sədri Rəşadət Ağayev Müdafiə Nazirliyi Tibb Baş İdarəsinin rəisi, general-mayor Natiq Əliyevə anası

**ROZA NƏSİB QIZI ƏFƏNDİYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Xaçmaz Rayon Məhkəməsinin kollektivi Ali Məhkəmənin Məhkəmə təcrübəsinin ümumiləşdirilməsi və məhkəmə statistikasının təhlili şöbəsinin müdiri Bəhman Qəribova atası

**FƏRHAD QƏRİBOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı və komitənin kollektivi Mahir və Elçin Muradovlara ataları

**CÜMŞÜD MURADOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı Dövlət Universitetinin rəhbərliyi və Həmkarlar İttifaqı universitetin prorektoru Əliş Ağamirzəyevə bacısı

**HƏCƏR XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi Mahir Muradova atası

**CÜMŞÜD BƏYƏLİ OĞLU MURADOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Səməd İslamov əziz dostları Mahir və Elçin Muradov qardaşlarına ataları

**CÜMŞÜD MURADOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


Baş redaktorun birinci müavini
Amil NOVRUZOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 6923
Sifariş 198
Qiyməti 40 qəpik